

Gün gələcək Azərbaycan
dünyaya günəş kimi doğacaq.

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

25 AVQUST 2023-cü il | CÜMƏ | № 181 (7651) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ






## Ukraynanın Prezidenti Zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident,

Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Ukrayna arasında münasibətlərin hazırkı yüksək səviyyəsi xalqlarımızın tarixən təşəkkül tapmış sıx dostluq və qarşılıqlı hörmət ənənələrindən irəli gəlir. Bu iradədən qaynaqlanan və möhkəm təməllər üzərində qurulan dövlətlərarası əlaqələrimizin birgə səylərimizlə dinamik inkişaf edərək yeni mərhələyə yüksəlməsi məmnunluq doğurur. Azərbaycan-Ukrayna əlaqələrinin keçən ilin yanvarında Ukraynaya səfərim zamanı imzaladığımız Birgə Bəyannamədə öz əksini tapmış məram və məqsədlərə uyğun olaraq bundan sonra da inkişaf edəcəyinə inanıram.

Cari ilin iyununda Kişineuda Sizinlə görüşümüzü, Azərbaycan-Ukrayna ikitərəfli əlaqələri ətrafında apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

Azərbaycan BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə daim sadiq qalaraq bütün dövlətlərin, o cümlədən Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edir. Biz Ukrayna xalqına humanitar yardım məsələlərini daim diqqətdə saxlayır, bundan sonra da lazımi yardım göstərməyə hazır olduğumuzu bildiririk.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin genişlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın möhkəmlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Ukrayna xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 avqust 2023-cü il.**

# Şəhərlər ölkələrin vizit kartıdır

*Şəhərlər ölkələrin vizit kartıdır. Təsadüfi deyil ki, hansısa ölkəyə səfər edən kəs ilk növbədə onun gözəl şəhərlərində, görməli yerlərində olmağa çalışır. Çünki o şəhərlərin, o yerlərin hər küncündə bir tarix yatır. Şəhərlər, tarixi, mədəni, dini abidələr insana çox şey danışır. Dünyanın isə gözəl şəhərləri çoxdur və düşünürəm ki, o yerləri görmək çoxlarının ən böyük arzusudur. Məsələn, İstanbulu, Romanı, Səmərqəndi, Afinanı və daha neçə-neçə şəhəri kim görmək istəməz ki? Təbii ki, bu siyahını uzatmaq da olar. Və mən tərəddüd etmədən Bakını da bu gözəl şəhərlər sırasına daxil etmək istərdim.*



## *Azərbaycan Prezidenti və birinci xanım Özbəkistan Prezidenti və xanımı ilə birgə işğaldan azad olunmuş torpaqlarda olublar*

Hər bir dövlət rəhbəri ölkəsinə gələn həmkarına da ilk növbədə həyata keçirilən işlərdən danışır, ölkəsinin gözəl şəhərlərində onları müsafir edir. Xüsusən də bu səfərlər mütəmadi xarakter daşıyanda gələn müsafirlərə gördüyü şəhərlər, yerlər daha da doğmalaşır. Azərbayan Prezidenti son illər xarici ölkələrə tez-tez səfərlər edir. Türkdilli dövlətlərə səfərləri isə daha intensiv xarakter alıb. Məsələn, ötən il dövlət başçımız Özbəkistana səfərində maraqlı tədbirlərin iştirakçısı olub: "Mən ötən il dövlət səfəri və beynəlxalq tədbirlər çərçivəsində üç dəfə Özbəkistanda - Daşkənddə, Səmərqənddə, Xivədə oldum. Bir daha demək istəyirəm ki, sizin həyata keçirdiyiniz həmin dəyişikliklərin, islahatların nəticələrini əyani şəkildə gördüm. Ona görə də sizin seçkilərdə qələbəniz tamamilə qanunauyğun idi və qardaş Özbəkistan xalqı ən düzgün seçim etdi". Azərbaycan Prezidenti İlham Əliyev bu fikri avqustun 23-də Bakıda keçirilən mətbuat konfransında bildirib. Azərbaycana növbəti səfəri çərçivəsində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə birgə keçirilən mətbuat konfransında deyib: "Bir daha deyirəm bugünkü görüşümüzə şadam, ondan məmnunam. Bütün azərbaycanlı dostlarımıza daha çox görüşməyimizi arzulayıram... Öz növbəmdə bunu demək istəyirəm və kütləvi informasiya vasitələri bilməlidir ki, mən hər görüşümüzdən məmnun qalıram, çünki onların nəticəsi çox böyükdür".

**(davamı 2-ci səhifədə)**

## Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsinin dəyişməsində əhəmiyyətli rola malikdir




*Çağdaş dünyamızın aktual hesab olunan məsələlərindən biri məhz enerji təhlükəsizliyidir. Çünki illər ötdükcə dünyadakı enerji qaynaqlarının əhəmiyyəti artır. Bu isə birbaşa sürətlə böyüyən dünya iqtisadiyyatındakı qaynaqlara əvvəlkindən daha çox tələbat yaradır. Xüsusi vurğulamaq lazımdır ki, strateji enerji mənbələri hazırda qlobal geosiyasi vəziyyətə təsir edən aparıcı faktorlardan biri kimi qiymətləndirilir.*

**(davamı 2-ci səhifədə)**

## Əlverişli İnvestisiya məkanı

### *Sənaye məhəllələri yeni biznes sahələrinin yaradılması üçün böyük potensiala malikdir*

Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində dövlət səviyyəsində hüquqi, siyasi və iqtisadi tədbirlərin görülməsi sahibkarlığın fəaliyyəti üçün həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı regional inkişaf strategiyasında sənaye quruculuğu prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bölgələrdə formalaşan xammal potensialı və əmək ehtiyatları nəzərə alınmaqla yaradılan sənaye müəssisələri ən müasir standartlar səviyyəsində qurulur. Bu müəssisələrin sayı artdıqca ixracyönümlü "Made in Azerbaijan" brendi ilə dünyaya çıxan məhsula tələbat da artır. Ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq sənaye parkları və sənaye məhəllələri yaradılır.




Beləliklə, modern sənayeləşmə Azərbaycanın iqtisadi qüdrətinin artmasına böyük təkan verir. Heydər Əliyev siyasi kursunun davamçısı Azərbaycan Prezidenti İlham Əliyev illər əvvəl demişdi: **"Azərbaycanın qeyri-neft sənayesinin inkişafı üçün tikilən bütün sənaye park və məhəllələri, zavod və fabriklər bir müddətdən sonra ölkəyə böyük həcmdə valyuta gətirəcək".** Bu gün sənaye park və məhəllələrimizdə istehsal olunan məhsulların dünyanın müxtəlif ölkələrinə Azərbaycan brendi ilə ixrac olunması illər əvvəl uzaqgörənliklə vurğulanan bu fikrin əyani sübutudur. Hazırda ölkədə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları) və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri) mövcuddur.

**(davamı 4-cü səhifədə)**

## Doğma sakinlərini qarşılayan növbəti kəndimiz Zabux olacaq

**İkinci Qarabağ müharibəsində qazanılan Zəfər sayəsində soydaşlarımızın 30 illik yurd həsrəti sona çatdı. Artıq yüzlərlə sakin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı yaşayış məskənlərinə köçürülüb. Bu da dövlətimizin iqtisadi və siyasi gücünün göstəricisidir.**



2020-ci ilin noyabrına qədər Azərbaycan dövlətinin qarşısında duran əsas məsələ erməni işğalı altında olan 20 faiz ərazilərimizi geri qaytarmaq olmuşdusa, bundan sonra isə əsas vəzifə həmin yerlərdə bərpa-quruculuq işlərinə başlamaq və sakinləri əzəli yurd yerlərinə köçürmək olub. Bu proses də özünü çox gözlətmədi. 2022-ci ildən başlayaraq "Böyük Qayıdış" proqramı ilə Zəngilanın Ağalı və Tərtərin Talış kəndi, eləcə də Laçın və Füzuli şəhərlərində vətəndaşlarımız yaşayırlar. İndi isə növbə Zabux kəndinə qayıdacaq keçmiş məcburi köçkünlərdədir. Artıq Zabux kəndi də digər şəhər və kəndlərimiz kimi, sakinlərinə əbədi qucaq açacaq. Plana uyğun olaraq avqustun 25-də ilk mərhələdə 20 ailə - 88 nəfər Zabuxa köçürüləcək.

**(davamı 4-cü səhifədə)**

### Sabirabadlı gənclər Heydər Əliyevin siyasi irsini öyrənirlər



səh. 4.

### Qərbi Azərbaycan İcması Qarabağ həqiqətlərinin tanınması üçün mühüm addımlar atır



səh. 5.

### Erməni etirafı: “adam dəli olur...”



səh. 7.

## Hayların hay-həşiri fayda verməyəcək

**44 günlük Vətən müharibəsindən sonra Azərbaycan tərəfi qətiyyətli addımlar atır, danışıqlar çərçivəsində beynəlxalq konvensiyalara uyğun yanaşmalar sərgiləyir, regional balansın təmini üçün əlindən gələni edir.**



Əfsuslar olsun ki, Azərbaycanın beynəlxalq hüquqa əsaslanaraq öz sərhədlərinə nəzarət və Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə təsis etdiyi Laçın sərhəd-buraxılış məntəqəsinin mövcudluğunu qəbul etməyən Ermənistan tərəfi bunu dünyaya Laçın yolunun bağlanması, Qarabağda yaşayan erməni sakinlərin "blokadası", "humanitar fəlakət" kimi qələmə verir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT baş katibinə ünvanladığı məktubda da bildirib ki, erməni əsilli sakinlərin daha çox ərzaq və digər məhsulla təchiz olunması üçün Ağdam-Xankəndi yolundan istifadə təklif edilib.

**(davamı 5-ci səhifədə)**

# Şəhərlər ölkələrin vizit kartıdır

## Azərbaycan Prezidenti və birinci xanım Özbəkistan Prezidenti və xanımı ilə birgə işğaldan azad olunmuş torpaqlarda olublar



(əvvəli 1-ci səhifədə)

Bəli, daha bir dost gəlişi. Dost gəlişi isə bayram olur, deyirlər. Son illər iki dövlət lideri arasında görüşlərin sayının artması Azərbaycan-Özbəkistan əlaqələrinə yeni impuls verib. Bu isə eyni zamanda ölkələrimizin, xalqlarımızın bir-birinə olan marağını artırır, dost ölkə haqqında daha çox məlumat əldə etməyə zəmin yaradır. Əlaqələr genişlənir, şəhərlər qardaşlaşır. Bu günlərdə Azərbaycan-Özbəkistan dostluğunun, qardaşlığının daha bir sevincini yaşadıq.

Onu qeyd edək ki, ötən il də iki ölkə arasında əlaqələrin intensivləşməsi baxımından yaddaqalan olub. Belə ki, iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana rəsmi səfəri zamanı Daşkənddə Heydər Əliyevin adını daşıyan meydanın açılışı olub, 20-dək sənəd imzalanıb. Səfər çərçivəsində həmçinin "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"yə imza atılıb ki, burada da iki ölkə arasında əlaqələrin daha da gücləndirilməsi, əməkdaşlıq üçün yeni imkanlar yaradılması və s. məsələlər əks olunur. Təbii ki, bu sənəd eyni zamanda insanların gediş-gəlişini də özündə ehtiva edir, çünki bu, xalqlarımızın bir-birini daha yaxından tanımaları üçün əsas amillərdəndir. Özbəkistan Prezidentinin: "Bütün azərbaycanlı dostlarımıza daha çox görüşməyimizi arzulayıram..." sözləri də bu məlum həqiqəti əks etdirir. Atalar məsəlində də deyildiyi kimi: "Çox gəzən, çox bilər". Beləliklə, Özbəkistanı bir qədər də yaxından tanımaq üçün qiyabi səyahətimizə başlayırıq...

Səmərqənd... Onu həm də möcüzələr şəhəri adlandırırlar. Şəhərin tarixi, görməli yerləri ilə bağlı məlumata keçməzdən öncə onu deyim ki, Azərbaycan Prezidenti dəfələrlə Özbəkistanda, Səmərqənd şəhərində olub. Biz hər dəfə televiziya kanallarında həmin səfərlər, keçirilən görüşlər barəsində sujetləri işləyərkən yayılan görüntülər insanı bu diyarın gözəl məkanları ilə baş-başa qoyur, Səmərqəndin gözəlliyinə heyran qalırsan. Səmərqənd həm də bir başqa amilə görə diqqət çəkir, çünki o da Bakı kimi türk dünyasının birliyinə, qardaşlığına, türkdilli dövlətlər arasında münasibətlərin inkişaf etdirilməsinə öz töhfəsini verir, Bakını isə özünə qardaş sayır. Və bir də ona görə ki, bu qədim, keçmişi və bu günü ilə öyünən şəhər doğrudan da digər gözəl şəhərlərlə rəqabətə girə biləcək qədər gözəldir.

Səmərqənd e.ə 329-cu ildə Böyük İsgəndər, eramızın 712-ci illərində ərəblər tərəfindən fəth edilib, 751-ci ildə müsəlmanlar əsir alınmış çinlilərdən kağız istehsalının sirrini öyrənib, müsəlman dünyasında ilk kağız karxanası Səmərqənddə tikilib. Bu vərdiş əvvəlcə ərəb xilafətinə, sonra isə Avropaya yayılıb. İspaniyanın Madrid şəhərində BMT-nin Ümumdünya Turizm Təşkilatı Baş Assambleyasının 24-cü sessiyasında qədim Səmərqənd şəhəri 2023-cü ildə dünyanın turizm paytaxtı elan edilib. Bu o deməkdir ki, Səmərqənd sözün əsl mənasında açıq səma altında muzey və dünya mədəniyyətinin xəzinəsidir...

Azərbaycan-Özbəkistan liderlərinin növbəti görüşünün xoş təəssüratları fonunda Səmərqəndə qısaca da olsa, qiyabi səfər edərkən doğma Azərbaycanımızın gözəl baş kəndindən sonra indi mötəbər, beynəlxalq səviyyəli tədbirlərə evsahibliyi edən Şuşamızdan danışmaya bilmərəm. Türk dünyasının mədəniyyət paytaxtı seçilən Şuşa 28 illik işğaldan sonra indi azadlığın dadını çıxarır. Yenidən qurulur, təbiətin ona bəxş etdiyi gözəlliyinə gözəllik qatılır, qonağı-qarası çoxaldıqca düşmənin vurduğu yaralar da qaysaq bağlayır, sevinir. Mən əminəm ki, 2021-ci ilin iyununda Şuşa Bəyannaməsinin imzalanmasına şahidlik edəndə bu doğma şəhərimiz daha çox qürurlanmışdı. Ona ən çox sevinci yaşadan isə türk dünyasının lideri Rəcəb Tayyib Ərdoğanın və onun xanımının gəlişi olmuşdu. Onun işğaldan azad edilmiş torpaqlara səfəri isə həqiqətən böyük hadisə idi. Bəli, qardaş ölkənin lideri gözəl bir ənənənin əsasını qoydu.

Bu günlərdə Azərbaycanda səfərdə olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva da o torpaqlara səfər etdilər. Avqustun 23-də Füzuli aeroportunda qarşılanmadan sonra onlar bu bölgədə məskunlaşmış sakinlərlə görüşdülər, M.Uluqbəy adına 1 nömrəli orta məktəbin açılışında oldular. Həmin gün Azərbaycan və Özbəkistan prezidentləri və xanımları Şuşaya gəldilər. İlk öncə, Saatlı məscidini ziyarət etdilər, sonra Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən gülləbaran edilmiş heykəllərinə baxdılar. Qonaqlar Şuşada bərpa edilmiş mədəniyyət nümunələrini seyr etdilər.

Daha bir səfər başa çatdı. Ölkəmizin bu dəfəki müsafirləri də doğma məmləkətimizdən xoş təəssüratlarla ayrıldılar...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

---



# Baş nazir Əli Əsədov Ukraynanın Baş nazirini Müstəqillik Günü münasibətilə təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Ukraynanın Baş naziri Denis Şmıqala ölkəsinin Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məktubda Azərbaycan və Ukrayna xalqları arasında əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələrinin mövcud olduğu vurğulanıb. Qeyd olunub ki, məhz bu möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur.

Azərbaycan-Ukrayna ənənəvi dostluq münasibətlərinin və səmərəli əməkdaşlığının xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub. ■

---

# Azərbaycan və Belçika XİN rəhbərləri çoxtərəfli formatlarda əməkdaşlıq və regional məsələlər barədə fikir mübadiləsi aparıblar



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Belçika Krallığının ölkəmizdə səfərdə olan xarici işlər, Avropa işləri, xarici ticarət və federal mədəni institutlar naziri Haccə Lhəbibi və rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov və nazir Haccə Lhəbib arasında təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Görüş zamanı Azərbaycan-Belçika arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb. Bölgəmizdə yeni reallıqlar kontekstində Belçika ilə iqtisadi, mədəni, ticarət, alternativ enerji, yüksək texnologiyalar, tibb və əczaçılıq və s. istiqamətlərdə müvafiq əməkdaşlığın daha da genişləndirilməsi imkanları olduğu bildirilib.

Müzakirələr zamanı, Ermənistanın 30 ilə yaxın dövr ərzində Azərbaycanın ərazilərinin işğalına, 9 şəhər və 300-dən yuxarı kəndin dağıdılmasına, etnik təmizləmə siyasətinə diqqət yönəldilib.

Postmünaqişə dövründə mövcud regional vəziyyət və reallıqlar, Azərbaycan tərəfindən Ermənistan ilə münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, bölgədə nəqliyyat və kommunikasiyaların açılması, eləcə də sərhədlərin delimitasiyası istiqamətində göstərilən səylər barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov, Ermənistanın davamlı qeyri-konstruktiv yanaşma sərgilədiyini, hərbi-siyasi təxribatlar törətdiyini, öhdəliklərindən boyun qaçırdığını, üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Laçın yolundan hərbi və mina təhdidinin davam etdirilməsi üçün sui-istifadə olunduğunu bildirib.

Görüşdə nazir Ceyhun Bayramov tərəfindən Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh gündəliyi, bu çərçivədə ölkəmizin konstruktiv yanaşması və müvafiq səyləri müqabilində Ermənistanın ziddiyyətli və təxribatçı mövqeyi haqqında müqabil tərəfə məlumat verilib.

Xüsusilə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası səylərinə Ermənistanın hər vəchlə maneçilik törətməsi, Laçın-Xankəndi yolu ətrafında yalan iddialar yayması qeyd olunub. Laçın yolundan gündəlik əsasda erməni sakinlərin keçdiyi, əraziyə böyük həcmli yüklərin daşınması üçün isə Ağdam-Xankəndi yolundan istifadənin Azərbaycan tərəfindən təklif olunduğu xatırlanıb.

Nazir Ceyhun Bayramov, eyni zamanda, bölgədə onilliklər boyu Azərbaycana qarşı aparılan işğalçılıq siyasətinə bəzi dövlətlərin göz yummasının, habelə postmünaqişə dövründə Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının siyasi manipulyasiyadan başqa bir şey olmadığını diqqətə çatdırıb. Bütün bunlarla əlaqədar, bölgədə Avropa İttifaqı missiyası kimi beynəlxalq təşəbbüslərin Ermənistan tərəfindən sui-istifadə edilməsinə imkan verilməməsinin zəruriliyi vurğulanıb.

Azərbaycanın hər zaman sülh və təhlükəsizlik şəraitində, ölkəmizin ərazi bütövlüyü çərçivəsində birgə yaşayışın, inkişaf və rifahın tərəfdarı olduğu və bu istiqamətdə səylərini davam etdirəcəyi diqqətə çatdırılıb.

Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar. ■

---

**Xəbər verdiyimiz kimi, BMT Baş Assambleyasının 78-ci yüksək səviyyəli həftəsində Azərbaycanı xarici işlər naziri Ceyhun Bayramov təmsil edəcək. BMT Təhlükəsizlik Şurasının 16 avqust 2023-cü il tarixində keçirilmiş növbədənkənar iclasında Ermənistanın növbəti təxribat xarakterli mövqeyi onun regionda sülh tərəfdarı olmadığını bir daha nümayiş etdirdi. Bu cür qeyri-konstruktiv mövqe isə iflasa məhkum idi, belə də oldu.**

# Azərbaycan beynəlxalq tədbirlərə qalib ölkə kimi qatılır



**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman NƏSİROV** bildirib ki, Ermənistan Respublikasının hərbi və siyasi rəhbərliyinin bütün anti-Azərbaycan planlarının iflasa uğramağa məhkumluğu bir həqiqətdir: "2020-ci ildə döyüş cəbhəsində ağır məğlubiyyətə düçar olan və kapitulyant statusuna enmiş Ermənistanın siyasi rəhbərliyi diplomatik müstəvidə uğur qazanmağa cəhd etsə də, uğursuzluq yenə də onları müşahidə etməkdədir. BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qətnamənin qəbuluna çalışan və bu istiqamətdə bütün havadarlarını səfərbər etmək istəyən Ermənistan əslində bu dəstəkdən də kənarda qaldı. Çünki Azərbaycan diplomatiyası öz sözünü dedi. Azərbaycan diplomatiyası həqiqətləri beynəlxalq ictimaiyyətə lazımi səviyyədə çatdırdı və Ermənistan bu zaman hücum taktikasından istifadə etdi. Ölkə Prezidenti İlham Əliyevin müəyyən etdiyi innovativ, kreativ xarici siyasət kursu öz müsbət nəticəsini verdi və dünyanın ən böyük universal beynəlxalq təşkilatı çərçivəsində aparılan müzakirələr də Ermənistanın növbəti məğlubiyyəti ilə yekunlaşdı. Yəni həm döyüş, həm də diplomatiya cəbhəsində böyük məğlubiyyətlər seriyasını yaşayan Ermənistan bu günləri idman dili ilə - boks termini ilə desək, nakaut vəziyyətindədir. Belə olan təqdirdə ermənilər bu ağır vəziyyətin də reallığını dərk edir".

Deputatın sözlərinə görə, Ermənistanın baş naziri "Qarabağ Azərbaycandır" ifadəsini də səsləndirmiş olur, həm də Azərbaycanın ərazi bütövlüyü tanınır, onun parametrləri göstərilir: "Düzü, hələ ki, bu, sözdə baş verir. Eyni zamanda da belə vəziyyətdə Ermənistanın siyasi hakimiyyətinə təzyiqlər, daxildə iğtişaşlar güclənir. Paşinyan, onun hökuməti xəyanətdə ittiham olunur və bu reallıqlar da məcbur edir ki, o, ehtiyatlı davransın, siyasi manipulyasiya ilə məşğul olsun, siyasi manevrlər etsin və hətta ayrı-ayrı hallarda hərbi təxribatlara imza atsın. Bu günlərdə biz Ermənistanın hərbi təxribatlarının da intensivləşdiyini görürük. Baxmayaraq ki, onun heç bir real nəticəsi olmayacaq. Onlar guya ki, Ermənistandakı siyasi hakimiyyətin öz siyasətində kompromissiz olduğunun bir görüntüsünü yaradır. Lakin Azərbaycan öz diplomatiya uğurlarını davam etdirməkdədir".

Parlamentari vurğulayıb ki, indi də BMT Baş Assambleyasının 78-ci yüksək səviyyəli həftəsi keçiriləcək və Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov da bu tədbirdə iştirak edəcək: "Biz bu tədbirə qalib kimi qatılırıq. Azərbaycan öz sözünü hər yerdə deyir. BMT-nin məlum dörd qətnaməsini Azərbaycan özü icra etdi - torpaqlarımız işğaldan azad olundu. Ancaq hesab edirəm ki, BMT-nin hər bir qətnaməsində qeyd olunan erməni silahlı qüvvələrinin tam dərhal və qeyd-şərtsiz çıxarılması məsələsinə diqqət yetirməyin vaxtıdır. Çünki erməni silahlı qüvvələri hələ Qarabağdan tam çıxarılmayıb. Hələ də orada təxminən on iki min nəfərlik qeyri-qanuni silahlı qruplaşma mövcuddur. Bu, həm də 10 noyabr sənədinin bəndlərinə ziddir. Biz bu məsələləri beynəlxalq aləmdə yenidən ən aktual bir məsələ kimi dilə gətirməliyik. Azərbaycan diplomatiyası da bu istiqamətdə fəaliyyətini genişləndirir və hörmətli xarici işlər nazirimizin də BMT çərçivəsindəki tədbirdə bu məsələləri bir daha dilə gətirəcəyi Azərbaycanın prinsipial və qətiyyətli mövqeyini ortaya qoyacağı heç kimdə şübhə doğurmur".

**Nuranə DAXİLQIZI,**
**"Respublika".**

---

# Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsinin dəyişməsində əhəmiyyətli rola malikdir



(əvvəli 1-ci səhifədə)

Beləliklə, zəngin enerji qaynaqlarına sahib olan ölkələrin iqtisadiyyat və geosiyasi baxımdan əsas mövqedə çıxış etməsi üçün əlverişli şərait formalaşır. Respublikamız zəngin enerji ehtiyatlarına, inkişaf etmiş yanacaq, enerji infrastrukturuna və sisteminə malik ölkələrdəndir.

Dövlətimizin enerji təhlükəsizliyi siyasətinin əsasları öz başlanğıcını 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən götürmüşdür. Sahib olduğumuz zəngin enerji resursları ölkəmizin iqtisadi potensialını gücləndirir, beynəlxalq müstəvidə əməkdaşlıqların qurulmasında da çox mühüm rol oynayır. Ümumiyyətlə, Azərbaycanın Avropaya təbii qaz, elektrik enerjisi və digər resursları ixrac etməsi iqtisadi məsələ olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli layihələrin reallaşdırılması üçün ölkəmizə iri həcmdə investisiyanın yatırılması baxımından da əhəmiyyətlidir. Şübhəsiz, bu, dövlətimizin iqtisadi inkişafına böyük təkan verir, siyasi dividend qazandırır.

Avropanın enerji xəritəsini dəyişən əhəmiyyətli meqa layihələrdən biri də Cənub Qaz Dəhlizidir. Uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizi, həmçinin XXI əsrin ən böyük infrastruktur layihələrindən biridir. Layihənin son komponenti olan Trans-Adriatik xəttinin işə salınması ilə Azərbaycan qazının Avropa məkanına çatdırılması da reallaşıb. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazının Avropa İttifaqının üç ölkəsinə - İtaliya, Yunanıstan və Bolqarıstana çatdırılması həyata keçirilir. Gələcək perspektivlərdə ölkəmizin ixrac coğrafiyasını genişləndirmək məsələsi də öz əksini tapıb. Dəyəri 33 milyard ABŞ dolları olan Cənub Qaz Dəhlizinin uğurla tamamlanması bütün iştirakçı dövlətlərin nailiyyəti kimi qiymətləndirilir. Cənub Qaz Dəhlizi layihəsi ilə bağlı ən təqdirəlayiq məqamlardan biri onun icrasına aparıcı beynəlxalq maliyyə institutlarının öz töhfəsini verməsidir. Bunlara, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı daxildir. Layihə tamamlandıqdan sonra ölkəmiz beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixracını artırıb. Məsələn, 2021-ci ildə Azərbaycan 19 milyard kubmetr təbii qaz ixrac edib ki, bunun 8,5 milyard kubmetri Türkiyənin, 7 milyard kubmetri İtaliyanın, yerdə qalanı isə komandanın başqa üzv ölkələrinə - Gürcüstanın, Yunanıstanın və Bolqarıstanın payına düşüb. Əslində dünya bazarına nəzər yetirsək Azərbaycan qazına yüksək tələbatın olduğunu aydın şəkildə görmək də mümkündür. Belə ki, xarici dövlətlərin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar. Bu göstəricilər zaman keçdikcə yüksəlməyə davam edir. Xatırladaq ki, hazırda Azərbaycanla Aİ arasında Xəzər sahillərindən Avropaya daha böyük həcmlərdə mavi yanacaq daşınmasını reallaşdırmaq məqsədilə Cənub Qaz Dəhlizinin genişləndirilməsi istiqamətində mühüm danışıqlar aparılır. Bu prosesə TANAP və TAP seqmentlərinin ötürücülük imkanlarının artırılması da daxildir. TANAP-ın indiki ötürmə qabiliyyəti 16 milyard kubmetr, TAP-ın isə 10 milyard kubmetrdir. Həmin göstəricilərin gələcəkdə müvafiq olaraq 32 və 20 milyard kubmetrə qədər artırılması nəzərdə tutulub.

Bu gün ölkəmizin beynəlxalq aləmdəki nüfuzu Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu siyasət nəticəsində yüksəlir. Sadaladığımız faktlar bir daha Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasətinin, yüksək idarəçilik qabiliyyətinin Azərbaycanın enerji sahəsində etibarlı tərəfdaş kimi dünyanın qabaqcıl ölkələrindən birinə çevrilməsində mühüm rol oynadığını təsdiqləyir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

# Heydər Əliyev

## tərəfindən əsası qoyulan uğurlu xarici siyasət



*Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. Ulu öndər Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Məhz Heydər Əliyevin siyasi kursu nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynayıb və ölkəmizi dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevirib. Heydər Əliyev son dərəcə təcrübəli dövlət başçısı və böyük siyasi xadim kimi hər zaman çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək bacarığı nümayiş etdirib, Azərbaycanın milli maraqlarını daim qətiyyətlə qoruyub. Bu baxımdan, ulu öndərin müəyyənləşdirdiyi xarici siyasət kursu böyük əhəmiyyət kəsb edir.*

Müstəqilliyimizin bərpasının ilk illərində milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə keçmiş Dağlıq Qarabağda başlayan erməni separatizmi, eləcə də hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üzüzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olunmaq zərurəti düşünülmüş, ardıcıl və fəal xarici siyasət tələb edirdi.

1993-cü ilin iyun ayında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycanda müasir müstəqil dövlətimizin əsasları qoyuldu. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz ümummilli liderin adı və fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Heydər Əliyevin bu yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, Ermənistanın işğalçı siyasətini ifşa etmək, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq, xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdırmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaradılması yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Müstəqilliyini bərpa etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin uğurla həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edib.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi Böyük İpək Yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Ümummilli lider Heylər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan, 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bu proqramın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ ilə dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində fəal əməkdaşlıq etmək imkanı qazandı.

Dövlətimizin xarici siyasəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində də mühüm diplomatik nailiyyətlərlə şərtləndi. Heydər Əliyevin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərində, aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə danışıqlarda göstərdiyi səylər onun apardığı məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil edib.

Ulu öndərimizin fəaliyyətində türkdilli dövlətlərlə əlaqələrin gücləndirilməsi, eyni kökdən gələn xalqların inteqrasiyasının sürətlənməsi hər zaman xüsusi diqqət mərkəzində olub. Bu məqsədlə Türkdilli Ölkələrin Dövlət Başçılarının davamlı olaraq Zirvə görüşləri keçirilib. Haqlı olaraq türk xalqları Heydər Əliyevi türk dünyasının ağsaqqalı hesab edirdilər.

Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər də respublikamız üçün həlledici illər olub. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulub. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilib, Azərbaycan dünya birliyinə qovuşub.

Əsasını ümummilli liderin qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə əxz edərək dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçib. Bu gün cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasət Azərbaycanın regionda və dünyada müttəfiqlərinin sayını xeyli dərəcədə artırıb. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər isə müstəqil dövlətimizin beynəlxalq müstəvidə yerini və rolunu əhəmiyyətli dərəcədə yüksəldib. Bu səbəbdəndir ki, beynəlxalq birlik Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqları qəbul edir. Bu reallıqlar isə Azərbaycanın liderliyi ilə regionun sülh, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilməsinə hədəflənib. Bütövlükdə isə qazanılan bütün nailiyyətlərin əsasında ulu öndər Heydər Əliyevin işıqlı ideyaları və Onun müəyyənləşdirdiyi xarici siyasət konsepsiyası dayanır.

**Sevinc FƏTƏLİYEVA,**
**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini.**

# ULU ÖNDƏRİN

## MİLLİ DÖVLƏTÇİLİK İDEOLOGİYASI

**2023-cü il Azərbaycan xalqı üçün böyük önəm kəsb edir. Belə ki, 2023-cü il may ayının 10-da ümummilli lider, müstəqil və müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Bununla əlaqədar olaraq, dövlət başçımız 29 sentyabr 2022-ci il tarixdə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır.**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixində güclü dövlət xadimi, məqsədinə doğru inamla irəliləyən əfsanəvi şəxsiyyət kimi parlaq və silinməz iz qoymuşdur. Ulu öndərin "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" - sözləri bu gün dünya azərbaycanlıları üçün əsl şüar olub.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilən Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə (1969-1982; 1993-2003) Azərbaycanın milli maraqlarını hər zaman uca tutmuşdur. 1993-cü ildən etibarən keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli və ölkənin ərazi bütövlüyünün bərpası uğrunda çoxşaxəli siyasi fəaliyyətini genişləndirən ulu öndər bu problemin siyasi yolla həlli məsələsini təkcə Azərbaycanın deyil, bütün Qafqaz regionunun təhlükəsizliyində prioritetə çevrildi.

Ölkəmizdə milli ideologiyanın yaradılması ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsidir. Ulu öndərin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən edib, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaradıb. Azərbaycançılıq ideologiyası bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrilib.

Azərbaycanlılar dünyanın müxtəlif ölkələrində yaşasalar da, onları bir-birinə bağlayan olduqca möhkəm mənəvi-ideoloji vasitələr var, bu, ana dilidir, Vətəndir, tarixən formalaşmış etnik-mədəni sistemdir. Müstəqil Azərbaycan Respublikasının inkişafında dünyanın müxtəlif ölkələrinə yayılmış azərbaycanlıların həmrəyliyi, mənəvi-ideoloji siyasi köməyi böyük rol oynayır. Dünyanın müxtəlif ölkələrinə səfərlərində Azərbaycan icmalarının nümayəndələri ilə görüşən, onlara hərtərəfli dəstək verən ulu öndərimiz dünya azərbaycanlılarının milli birliyi uğrunda mübarizəni Azərbaycan dövlət siyasəti səviyyəsinə yüksəldib.

Azərbaycançılıq ideologiyasının əsasını qoymuş ümummilli liderimiz Heydər Əliyev bu ideologiyanın əsas məqsədləri barədə deyirdi: "İndi hər bir azərbaycanlı qürur hissi keçirdə bilər ki, mən azərbaycanlıyam, mənim millətim, mənim millətimin dövləti, ölkəm vardır. İsveçrədə, Almaniyada, Fransada yaşasam da, fərqi yoxdur, mənim xalqımın müstəqil dövləti var və dünya xalqları içərisində yerim vardır. Azərbaycan xalqının əsrin sonunda əldə etdiyi ən böyük nailiyyət budur".

Əsası ulu öndər tərəfindən qoyulan milli həmrəyliyin inkişafı istiqamətində mühüm qərarlar verilib, qanunlar qəbul olunub. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib. Həmin vaxtdan bütün dünyada azərbaycanlılar bu günü böyük sevinc və qürurla bayram kimi qeyd edirlər.

Ulu öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun bütün fəaliyyəti buna yönəlmişdi. Məhz onun uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə də ölkədə daha genişmiqyaslı islahatların aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlandı.

Müstəqil Azərbaycan Respublikasının mühüm dövlət təsisatlarından biri olan Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına xidmət edən bir qurum kimi dövlət idarəçiliyi sistemində öz layiqli yerini tutması ölkəmizdə aparılan hərtərəfli məhkəmə-hüquq islahatlarının memarı kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun gündəlik qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Ulu öndər prokuror peşəsinə dərin hörmət və ehtiramının təzahürü kimi hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli Sərəncam imzalamış, həmçinin prokurorluq işçilərini dövlət təltiflərinə layiq görmüşdür. Fərəh və qürur hissi ilə qeyd etməliyik ki, MDB-də prokurorluğun peşə bayramı gününün təsis edildiyi ilk ölkə Azərbaycan olmuşdur. Ulu öndərimiz prokurorluq işçilərinin peşə fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda, Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".

Mənəvi birliyimizin əsas meyarlarından biri və ziyalılarımızın çoxdankı arzusu olan dil islahatı istiqamətində ciddi işlər görüldü. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli Sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli Sərəncam və nəhayət, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş "Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Bu sənədlərin hazırlanmasında böyük tarixi şəxsiyyət Heydər Əliyevin yüksək intellekti, zəngin dövlətçilik təcrübəsi, yenilməz məntiqi, vətəndaşlıq qeyrəti, ana dilinə misilsiz məhəbbəti mühüm rol oynayıb.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası da irəli sürülüb. 5 iyul 2002-ci ildə isə Heydər Əliyevin Fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

Prezident İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi, dövlət başçısının 2018-ci il 5 iyul tarixli Fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən Dünya Azərbaycanlılarının II Qurultayı 2006-cı, III qurultayı 2011-ci, IV qurultayı 2016-cı, V Zəfər Qurultayı isə 2021-ci ildə keçirilib.

Ümummilli liderimizin ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətli inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq olmuşdur. Xüsusilə də Prezidentin hərbi strategiyası, hücum diplomatiyası, xalq-ordu birliyi nəticəsində 44 günlük Vətən müharibəsində doğma Qarabağımız düşməndən azad olmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir.

Fəxr edir və qürur hissi keçiririk ki, ulu öndərin memarı olduğu Azərbaycan hazırda ən layiqli siyasi varisi, Prezident İlham Əliyevin reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi və məqsədə doğru inamla irəliləməsi nəticəsində dünyanın inkişaf etmiş dövlətləri ilə bir sıradadır.

**Raya QƏFƏROVA,**
**İsmayıllı rayon prokurorunun köməkçisi, III dərəcəli hüquqşünas.**

**Tarixə nəzər salanda aydın olur ki, hər bir xalq dövlətə rəhbərlik məsuliyyətini üzərinə götürən qətiyyətli liderinin fitri idarəçilik qabiliyyəti sayəsində bütün çətinlikləri dəf edir və özünəməxsus inkişaf yolunu müəyyənləşdirir. XX əsrdə Azərbaycan xalqının dünya siyasi arenasına bəxş etdiyi qüdrətli şəxsiyyət, xalqımızın xilaskarı və müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi on milyonlarla insanın qəlbində yaşayır və ehtiramla yad edilir.**

# Qüdrətli Azərbaycan Ümummilli Liderimizin ideyalarının təcəssümüdür

Dövlət başçısı İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamına əsasən anadan olmasının 100-cü ildönümünün respublikamızda təntənə ilə qeyd edilməsi Ümummilli Liderin tariximizdəki müstəsna rolunun yüksək səviyyədə dəyərləndirilməsidir. Ulu Öndərin dövlət müstəqilliyinin möhkəmləndirilməsində və milli inkişaf hədəflərinin müəyyənləşməsindəki tarixi xidmətlərini önə çəkən Sərəncamda qeyd edilir ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olunmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir.

Ulu Öndər respublikamıza rəhbərlik etdiyi 1969-cu ildən respublikamızın inkişafı və xalqımızın rifah halının durmadan yaxşılaşması üçün müdrik siyasəti sayəsində hazırlanan inkişaf strategiyası icrasının uğurla təməlini qoydu. Milli kadrların hazırlanmasına geniş şərait yaradıldı.

Bir fakta toxunmaq istərdim. 1970-ci illərin əvvəllərinə qədər Azərbaycanda orta ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı olduqca aşağı səviyyədə idi. Lakin Ümummilli Lider hakimiyyətə gələndən sonra qısa müddət ərzində bu problemin həllinə nail oldu və şagirdlərin dərsliklərlə pulsuz təminatı ənənəsinin əsası qoyuldu. Respublika rəhbərliyinin təhsilin inkişafına göstərdiyi xüsusi diqqət yeni orta ümumtəhsil məktəblərinin tikintisində də öz təzahürünü tapırdı. Qısa vaxt ərzində 350 mindən çox şagird yeri olan 849 məktəb inşa edilərək istifadəyə verilmişdi. 1980-ci ildə respublikada ümumtəhsil məktəblərində oxuyan şagirdlərin sayı 710 minə çatmışdı ki, bu da 1970-ci illə müqayisədə təxminən iki dəfə artıq idi. Heydər Əliyevin təşəbbüsü və himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir. Bu isə respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə səbəb olmuşdu.

Ulu Öndərin müdrikcəsinə müəyyənləşdirdiyi neft strategiyasına əsasən 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan beynəlxalq sazişin imzalanması Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməlini qoydu. Bununla da "qara qızıl"ın taleyi ilk dəfə olaraq respublikamızın inkişafına və xalqımızın həyat səviyyəsinin durmadan yaxşılaşmasına yönəldildi. Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyasının müsbət bəhrəsini xalqımız görür və bundan sonra da daim hiss edəcək.

Ölkəmizin bütün sahələrində olduğu kimi, siyasi arenada da qazanılan uğurlar Ulu Öndərin adı ilə bağlıdır. Belə ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi sayəsində təsis edilən və yarandığı gündən xalqın partiyasına çevrilən Yeni Azərbaycan Partiyası bu gün öz ətrafında 765 min nəfərə yaxın üzvü birləşdirməklə Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi gücünü durmadan artırır.

Dünya birliyində iqtisadi qüdrətini və rolunu artıran respublikamız Ümummilli Liderimizin ən layiqli siyasi varisi, dövlət başçımızın qətiyyətli rəhbərliyi ilə durmadan inkişaf edir. İkinci Qarabağ müharibəsindəki zəfərdən sonra iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyan Azərbaycan hazırda qarşıya qoyduğu böyük hədəflərə doğru inamla addımlayır. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi hazırda 56 milyard ABŞ dollarını ötüb və bu göstərici ölkəyə idxalın ən azı 3 il ərzində fasiləsiz maliyyələşdirilməsinə kifayət edir. Məhz bu səbəbdən də tarixin ən qüdrətli Azərbaycanı Ulu Öndərin ideyalarının şanlı təcəssümüdür.

**Fəxrəddin QURBANOV,**
**Zaqatala Rayon Statistika İdarəsinin rəisi.**

# Doğma sakinlərini qarşılayan növbəti kəndimiz Zabux olacaq

(əvvəli 1-ci səhifədə)

Paytaxtdan Zabux kəndinə yolasalma Lökbatanda məcburi köçkünlər üçün salınmış "Qobupark-3"də baş tutacaq. Zabuxa birinci mərhələdə köçürüləcək sakinlər arasında keçirilən püşkatmada 20 ailə - 88 nəfər iştirak edib. Ailədəki say tərkibinə uyğun olaraq, onlardan 4-ü ikiotaqlı, 4-ü üçotaqlı, 8-i dördotaqlı, 4-ü beşotaqlı mənzillə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində,



Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar. Püşkatmanın keçirilməsi keçmiş məcburi köçkünlərin yerləşdirilməsində obyektivliyi və şəffaflığı təmin etmək üçündür.

Laçın rayonunun Zabux kəndi 2022-ci il avqustun 26-da erməni işğalından azad olunub və Azərbaycan Ordusunun nəzarətinə keçib. Buna qədər isə ölkəmizin ən böyük rayonlarından biri olan Laçın rayonunun tərkibində 30 il işğal altında olub.

Vətən müharibəsi başa çatdıqdan sonra Laçın rayonu Ordumuzun nəzarətinə keçsə də, Laçın şəhəri Zabux və Sus kəndləri nəzarətimizdə deyildi. Bunun da səbəbi Ermənistandan Qarabağa gedən yolun Laçın şəhərindən keçməsi idi. Lakin 10 noyabr Bəyanatı imzalandığı gün Prezident İlham Əliyevin təkidilə yeni yol çəkildikdən sonra Laçın şəhərinin üç il ərzində Azərbaycana qaytarılması razılaşdırıldı. Beləliklə, dövlət başçısının tapşırığına uyğun olaraq ilyarım ərzində Azərbaycan tərəfi üzərinə düşən işi yekunlaşdıraraq yolun tikintisini başa çatdırdı. Artıq 2022-ci il avqustun 2-də yol istismara tamamilə hazır olmuşdu. Avqustun 5-nə qədər Laçın şəhəri, Zabux və Sus kəndlərini təhvil verməli olan ermənilər xahiş edərək, vaxtı avqustun 25-nə qədər uzatdılar. Nəticə etibarilə avqustun 25-də ermənilər həmin əraziləri tərk etdilər və bir gün sonra Azərbaycan Ordusu Zabux, Sus kəndlərinə və Laçın şəhərinə daxil oldu. Daha sonra isə dövlət başçısı Laçın şəhərinə səfərdə olan zaman Azərbaycan Bayrağını şəhərin mərkəzində qaldırdı və bəyan etdi ki, biz artıq bu doğma diyarımızda əbədi yaşayacağıq.

Ermənilərin uzun illər boyu torpaqlarımızı işğal altında saxladığı müddətdə törətdiyi cinayətlərdən biri də həmin yerlərdə qanunsuz məskunlaşma aparması olub. Beynəlxalq konvensiyalara zidd olaraq ermənilərin daha çox köçürüldüyü ərazilərə Zabux kəndi də daxildir. Prezident İlham Əliyev ermənilərin qanunsuz olaraq Azərbaycan ərazilərində yerləşdirilməsinə münasibət bildirərək demişdi: "İşğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz. Bu, hərbi cinayətdir. Bəlkə də orada yaşayanlar Suriyadan, Livandan gəlmiş ermənilər bunu bilmirlər, amma Ermənistan rəhbərliyi bunu yaxşı bilir".

Dövlətimizin başçısı mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşüb və bildirmişdi ki, cəmi iki ilyarım ərzində artıq keçmiş köçkünlərin birinci qrupunu Ağalı kəndinə, Talış kəndinə yerləşdirmişik və üçüncü yaşayış yeri, hara ki, keçmiş köçkünlər qayıdır, Laçın şəhəri olub. Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik.

Artıq həmin gün gəlib çatıb və görülən işlərə nəzər yetirdikdə əminliklə deyə bilərik ki, Qarabağ və Şərqi Zəngəzur Cənubi Qafqazın ən müasir bölgələrindən biri olacaq. Böyük sevinc hissi ilə demək olar ki, işğaldan azad olunmuş şəhər, kənd və qəsəbələrimizdə həyata keçirilən yenidənqurma işləri gündən-günə sürətlənir və ona paralel olaraq vətəndaşlarımız doğma torpaqlara qayıdır. Bütün bu işlərə görə isə Müzəffər Ali Baş Komandanımıza, Orumuza, şəhid və qazilərimizə minnətdarıq.

**Musa BAĞIRLI,
"Respublika".**

# Sabirabadlı gənclər Heydər Əliyevin siyasi irsini öyrənirlər




**Millət vəkili Kamal Cəfərovun təşəbbüsü və "PAŞA Holding" MMC-nin dəstəyi ilə baş tutan "Heydər Əliyev Siyasi Məktəbi" layihəsi uğurla davam edir. Sözügedən layihə ümummilli lider Heydər Əliyevin müxtəlif dövrlərdə tətbiq etdiyi idarəçilik modelinin əsasında yeni nəsil Sabirabad fəallarının siyasi hazırlığını yüksəltmək məqsədi daşıyır. Layihə çərçivəsində Heydər Əliyevin siyasi fəaliyyətinin 6 dövr üzrə rəmzi seçilmiş məkanlarda öyrənilməsi nəzərdə tutulub. Bundan başqa, ulu öndərin fəaliyyətinin bir hissəsi olmuş vəzifəli şəxslərlə qeyri-rəsmi formada görüşlərin təşkili də layihənin bir hissəsidir. Bu günədək üç mərhələsi həyata keçirilən layihənin ilkin dövrü Heydər Əliyevin tələbəlik və gənclik illəri (Naxçıvan şəhəri), 2-ci dövrü dövlət təhlükəsizliyi orqanlarında fəaliyyəti (DTX Akademiyası), 3-cü dövr Sovet Azərbaycanına rəhbərlik etdiyi illər (Sabirabad şəhəri), 4-cü dövr Sovet İttifaqının rəhbərliyində çalışdığı illər (Hökumət Evi), 5-ci dövr müstəqilliyimizin bərpası uğrunda mübarizəsi (Yeni Azərbaycan Partiyası, Milli Məclis) və 6-cı dövr isə ulu öndərin qayıdışı, müstəqil Azərbaycana rəhbərlik etdiyi illəri (Şuşa şəhəri) əhatə edir.**

Açılışı Naxçıvan şəhərində baş tutan layihənin ilkin mərhələsi bir sıra məqamlarla yadda qalıb. Belə ki, Azərbaycan Prezidentinin Naxçıvandakı səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli və AMEA-nın Naxçıvan bölməsinin sədri İsmayıl Hacıyev ulu öndər Heydər Əliyevin gənclik və tələbəlik illəri barədə gənclərə məlumat verib. Layihə iştirakçıları, həmçinin Heydər Əliyevin tələbəlik və gənclik illərini əks etdirən eksponatlar, materiallarla tanış olub, onun təşəbbüsü ilə inşa edilən obyektlərə baş çəkiblər. İlkin mərhələdə yaddaqalan digər bir məqam isə Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində çalışdığı zaman onun köməkçisi olmuş Ramiz Məmmədovun sabirabadlı gəncləri ulu öndərin iş otağı ilə tanış etməsi idi. İlkin mərhələ ilə bağlı fikirlərini bölüşən layihə iştirakçısı, YAP Sabirabad rayon təşkilatının üzvü Nicat Ağayev bildirib ki, ulu öndərin fəaliyyəti dövründə gördüyü işlər bizim bu gün azad və firavan yaşamağımız üçün təməldir: "Heydər Əliyev Muzeyində saxlanılan Naxçıvan Vilayət Komitəsinin büro iclaslarının protokollarından da aydın olur ki, Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul edilib, gələcək perspektivə hesablanmış addımlar atılıb. Naxçıvan Muxtar Respublikasının xilası və dirçəlişi də məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır".

Layihənin 2-ci mərhələsində sabirabadlı gənclərə Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasında ulu öndər Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında fəaliyyəti ilə bağlı məlumat verilib. Burada ən yaddaqalan məqamlardan biri DTX-nın fəxri əməkdaşı, istefada olan polkovnik Azər Qarayevin Heydər Əliyevin dövlət təhlükəsizlik orqanlarında çalışarkən həyata keçirdiyi "Naturalist", "Duel", "Axito", "Alagöz" əməliyyatları barədə danışması idi. Daha sonra layihə iştirakçıları Akademiyanın muzeyi ilə tanış olublar. İkinci mərhələ ilə bağlı fikirlərini bölüşən layihə iştirakçısı, YAP Sabirabad rayon təşkilatının əməkdaşı Tural Hüseynzadə öz təəssüratlarını bölüşüb: "Layihənin ikinci mərhələsi ulu öndər Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında fəaliyyəti ilə bağlı idi ki, biz DTX Akademiyasını ziyarət etdik. Burada ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan muzeyə baş çəkdik, sərgilənən eksponatlarla, arxiv materialları ilə tanış olduq".

Layihənin 3-cü mərhələsi Sabirabad şəhərində baş tutdu. Bu mərhələdə Azərbaycanın sabiq Baş naziri, xarici işlər naziri Həsən Həsənov Sabirabad şəhərində ulu öndər Heydər Əliyevin idarəçilik keyfiyyətləri və Sovet Azərbaycanının iqtisadiyyatına, mədəniyyətinə, ədəbiyyatına verdiyi misilsiz töhfələrdən söz açıb. Bundan başqa, tanınmış pambıqçı, Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynova layihə iştirakçıları ilə görüşündə ümummilli liderlə bağlı xatirələrini gənclərlə bölüşüb. Layihə iştirakçısı, YAP Sabirabad rayon təşkilatı fəalı Ceyran Xəlilova üçüncü mərhələ ilə bağlı təəssüratlarını belə ifadə edir: "Pambıqçı Fatma Hüseynova ilə görüşdük, o, gözəl çay süfrəsi hazırlamışdı və süfrə arxasında ulu öndərimiz Heydər Əliyevlə bağlı xatirələrini bizimlə bölüşdü. Fatma xanım bildirdi ki, o məni öz qızı bilirdi və öz həyat yoldaşı Zərifə xanıma belə demişdir ki, mənim bir qızım yox, iki qızım var. Fatma xanım dedi ki, Heydər Əliyev kənd təsərrüfatını yaxşı bilirdi, əkin sahəsinin hər tərəfini gəzir, detallara xüsusi əhəmiyyət verirdi. O, həm də çox mərhəmətli insan idi. Həmişə onların qayğıları ilə şəxsən maraqlanır, onların taleyinə biganə qalmırdı".

Qeyd edək ki, layihənin hər bir mərhələsinin ikinci hissəsində "Yüksəliş" müsabiqəsi ilə əldə edilən razılaşmaya əsasən qaliblər tərəfindən iştirakçılara fərdi inkişaf proqramı keçirilir. Beləliklə, qaliblər müsabiqə zamanı əldə etdikləri bilik və bacarıqları region gənclərinə ötürməklə "Yüksəliş" müsabiqəsinin növbəti faydalılıq həlqəsini formalaşdırırlar. Layihənin maraqlı və yaddaqalan şəkildə həyata keçirilməsində Milli Məclisin deputatı Kamal Cəfərov və "PAŞA Holding" MMC-nin təşəbbüsü və dəstəyi xüsusi vurğulanmalıdır.

**Nəzrin ELDARQIZI,
"Rsapublika".**

# GERÇƏK İMİŞ KOROĞLUNUN DƏLİLƏRİ...

*Fərman gəldi, əmr olundu -
"Yurd, irəli!",
daha bizi bezdirmişdi "Vaxt oyunu",
gerçək imiş Koroğlunun Dəliləri,
44 günlük döyüşlərdə gördük bunu!
Dost qınağı ağır olur yad olanın tənəsindən,
qürbətlərdə dəfələrlə üz qızartdıq, "yerə girdik",
rəzil oldu yağı düşmən həmləmizdən,
biz möhtəşəm Zəfər çalan
bu savaşa girməliydik!
Mərmilərin bağırtısı yeri-göyü oynadırdı,
hər əsgərin qəlbindəki bir müqəddəs inad idi,
O son savaş düşmənlərə "Qır qazanı" qaynadırdı,
davadakı köhlənlərin hamısı da -
Qırat idi!
Zəlzələ tək, sel kimiydi coşan Millət tərpənişi,
Vətənimin hər övladı yenilməyən igid, qoçaq,
arada bir Xankəndi var; o da beş-on günün işi:
Xankəndinə qayıdacaq!
Bu Zəfərin Sərkərdəsi özü Ali Baş Komandan,
öz hökmü var hər zamanın - Söz sahibi gələsiydi,
İsmi oldu Vətənimin - "Qələbəli Azərbaycan!"
Ordumuzun hər əsgəri bir Koroğlu dəlisiydi!!!*

**Vahid ƏZİZ,
Xalq şairi.**

# ƏN TEZ xidməti bu gündən Heydər Əliyev Beynəlxalq Aeroportunda fəaliyyətə başlayıb

**Ölkə Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların ədliyyə fəaliyyətinə əlçatanlığının artırılması, xidmətlərdən vahid məkandan yararlanması ilə bağlı rəqəmsal innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə tədbirlər davam etdirilir.**




Bu məqsədlə nazirlik tərəfindən əhaliyə müxtəlif elektron və mobil ədliyyə xidmətləri göstərilir. Həmçinin bir müddət öncə növbəti rəqəmsal innovasiya olan və ədliyyə xidmətlərindən eyni vaxtda, vahid mənbədən və məsafədən göstərilməsini təmin edən yeni "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) xidməti yaradılaraq istifadəyə verilib.

Həmin innovativ xidmət məkanı ilk olaraq respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış DOST mərkəzində əhalinin daha həssas təbəqələrinə xidmət göstərilməsi məqsədilə geniş ictimai təqdimatı keçirilməklə fəaliyyətə başlayıb və ötən dövrdə minlərlə vətəndaş "ƏN TEZ" vasitəsilə müxtəlif ədliyyə xidmətlərindən yararlana biliblər.

Dövlət xidmətlərinin göstərilməsində vətəndaş məmnunluğu doğuran belə bir innovativ yanaşmanın tətbiqinə artan ictimai maraq nəzərə alınaraq nazirlik tərəfindən "ƏN TEZ" innovativ platforması bu gündən Heydər Əliyev Beynəlxalq Aeroportunda istifadəyə verilib.

Həmin platforma vasitəsilə səyahət etmək arzusunda olan vətəndaşlara vaxta qənaət edərək, aeroportun binasını tərk etmədən heç bir qeydiyyat və elektron imza tələb olunmadan, tək şəxsiyyət vəsiqəsi ilə biometrik eyniləşdirmə aparılmaqla, daha sadə və sürətli şəkildə təxirə salınmayan zəruri ədliyyə xidmətlərindən yararlanmaq imkanı yaradılıb.

Onlar yetkinlik yaşına çatmayan şəxslərin dövlət sərhədindən keçməsi üçün zəruri olan valideynlərin razılıq ərizələrinin notariat qaydasında rəsmiləşdirilməsi, habelə məhkəmə qərarına əsasən borclu şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması aşkar olunduğu halda borcun terminal üzərindən ödənilərək həmin məhdudiyyətin avtomatlaşdırılmış qaydada dərhal aradan qaldırılması ilə bağlı əvvəl təqdim edilmiş xidmətlərlə yanaşı, digər notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, tələbkar qismində bəzi məhkəmə qərarlarının icrası və sair xidmətlərdən faydalana biləcəklər.

**Ədliyyə Nazirliyi
Mətbuat xidmətinin
məlumatı.**

# Əlverişli İnvestisiya məkanı

(əvvəli 1-ci səhifədə)

Sənaye parkları və məhəllələrdə sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti yaradılıb. Bütün sənaye parkları və məhəllələri son dərəcə qabaqcıl texnologiyaların tətbiqi, ən müasir infrastruktur təminatı, əlverişli və asan nəqliyyat-kommunikasiya şərtləri ilə fəaliyyət göstərir,




Ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə müəyyən edilib. Belə ki, dövlət başçısının həmin ildə Neftçalaya səfəri zamanı verdiyi tapşırığa və 2015-ci ilin fevralında imzaladığı müvafiq Sərəncama əsasən yaradılan Neftçala sənaye məhəlləsində yüksək standartlara cavab verən 7 istehsal sahəsi, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib. Sənaye məhəlləsində 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. 2016-cı ildə ölkə başçısı Masallı Sənaye Məhəlləsinin açılışında iştirak edib. Burada sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün zəruri olan xarici və daxili infrastruktur, o cümlədən elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri inşa edilmişdir. Hazırda sahibkarlıq subyektlərinin istifadəsinə verilmiş sənaye məhəlləsində 10 müəssisə iştirakçı kimi qeydiyyata alınmış, 7 müəssisə istehsal fəaliyyətinə başlamışdır. 2017-ci ildə açılışında Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etdiyi Hacıqabul Sənaye Məhəlləsində dövlət vəsaiti hesabına lazımi infrastruktur yaradılıb, abadlıq işləri aparılıb. Digər sənaye məhəllələrində olduğu kimi, Hacıqabul Sənaye Məhəlləsinə də sahibkarlar tərəfindən böyük maraq var. Sabirabad Sənaye Məhəlləsi "Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli Sərəncamı ilə yaradılmışdır. Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsidir. Qeyd edək ki, Azərbaycan Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması istiqamətində 4,8 hektar ərazidə Şərur Sənaye Məhəlləsi yaradılmışdır.

Sənaye parkları və məhəllələri logistik imkanlar baxımından əlverişli ərazilərdə - əsasən magistral avtomobil və dəmir yolu xətlərinin yaxınlığında yerləşirlər. Bu da onların investorlar üçün cəlbediciliyini şərtləndirən əsas amillərdən biridir. Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

## *Sənaye məhəllələri yeni biznes sahələrinin yaradılması üçün böyük potensiala malikdir*

Hazırda sənaye məhəllələrində fəaliyyət göstərən rezidentlərin sayı 26-ya çatmışdır. Ümumilikdə sənaye zonalarına (parklar və məhəllələr) müəssisələr tərəfindən 6,56 milyard manat, o cümlədən 2023-cü ilin birinci yarımili üzrə 86,4 milyon manat investisiya yatırılmışdır ki, bunun da nəticəsində faktiki olaraq 11000-ə yaxın iş yeri yaradılmışdır. Bundan başqa, mövcud layihələr üzrə əlavə olaraq 615,9 milyon manatdan çox investisiyanın qoyulması və 4800-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur. Rezidentlər tərəfindən bu günə kimi 10,2 milyard manatdan çox, o cümlədən 2023-cü ilin birinci rübü üzrə 1 419,5 milyon manat həcmində məhsul istehsalı həyata keçirilmişdir ki, bunun da 3,35 milyard manatlıq hissəsi, o cümlədən 2023-cü ilin birinci yarımili üzrə 470,6 milyon manatlıq hissəsi ixrac olunmuşdur.

Xarici ölkələrin təcrübəsinə istinad edərək deyə bilərik ki, sənaye parkları, sənaye məhəllələri sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq imkanına malikdir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində belə infrastrukturun yaradılmasına və inkişafına xüsusi yer verirlər. Türkiyə, Almaniya, Polşa, Çin və Cənubi Koreya kimi dövlətlərin təcrübələri sübut edir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatının ixrac imkanlarını artırır, rəqabət qabiliyyətini gücləndirir, idxalı əvəz edən məhsulların istehsalını artırmağa münbit şərait yaradır, regionda məşğulluğun təmini, investisiyaların, qabaqcıl təcrübənin və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir.

**Mustafa KAMAL,
"Respublika".**

# Ombudsmanın nümayəndələri Azərbaycan sərhədini pozan erməni diversanta baş çəkib



**Ombudsman Səbinə Əliyevanın tapşırığına əsasən, Milli Preventiv Qrupun (MPQ) üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən növbəti başçəkmə həyata keçirilib.**

Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, MPQ-nin ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftarın, müəssisədəki saxlanma şəraitinin və təqsirləndirilən şəxslərin hüquqlarının təmini vəziyyətinin monitorinqi olub.

Başçəkmə zamanı bu ilin avqustun 16-da terror-təxribat törətmək məqsədilə Azərbaycan-Ermənistan dövlət sərhədini qanunsuz olaraq keçən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupunun üzvü Qaqik Voskanyan da qəbul edilib. Həmin təqsirləndirilən şəxsin saxlanma şəraiti, onunla rəftar, tibbi xidmətə çatımlılıq və Milli Preventiv Mexanizm mandatına uyğun digər məsələlər araşdırılıb, beynəlxalq və milli qanunvericiliyə əsasən hüquqlarının təmin edilməsi vəziyyəti öyrənilib. Adıçəkilən şəxs saxlanma şəraitindən, onunla rəftardan və tibbi xidmətdən razılığını bildirib.

Konfidensial qaydada söhbət aparılan şəxsə hüquqları, ombudsmanın səlahiyyətləri barədə məlumat verilib, öz dilində insan hüquqları sahəsindəki beynəlxalq aktlar təqdim edilib. ■

## XX əsrin bəlası - Deportasiya

# Qərbi Azərbaycan İcması Qarabağ həqiqətlərinin tanınması üçün mühüm addımlar atır

**Ermənistanın apardığı etnik təmizləmə, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər nəticəsində azərbaycanlıların onilliklər ərzində məruz qaldıqları iztirab və məhrumiyyətlərə beynəlxalq ictimaiyyətin biganəliyi və ikili standartları ilə bağlı Qərbi Azərbaycan İcması və Azərbaycan Respublikasının digər vətəndaş cəmiyyəti təşkilatları 2023-cü il iyulun 28-də müraciət qəbul edib.**

Həmin müraciət BMT Baş Assambleyası Təhlükəsizlik Şurası və İqtisadi və Sosial Şuranın rəsmi sənədləri kimi yayılıb.

Əvvəlki adı "Azərbaycan Qaçqınlar Cəmiyyəti" olan İcma 2022-ci ildə yenidən təşkil olunduğu dövrdən bəri xarici təşkilatlara daima məcburi köçkünlərin qayğısına qalması və onların rifahının yaxşılaşdırılması, Ermənistanın barbar siyasətindən əl çəkməsi barədə dəfələrlə müraciətlər ünvanlayıblar.

Azərbaycan xalqını öz doğma yurd-yuvalarından didərgin salan köç siyasəti hayların uydurma tarixlərinin tanıdılmasında mühüm əhəmiyyət kəsb edir. Belə ki, azərbaycanlılardan qalan torpaqlara köçən erməni sakinləri burada tarixi mədəniyyətmizi özününküləşdirmə siyasəti güdüb. Qarabağı erməni torpaqları kimi göstərmək istəyən haylar Ermənistanın ərazisinin bir vaxtlar Azərbaycan torpaqları olduğu gerçəyini bilirlər. Tarix boyu köçəri həyat yaşayan bu tayfa nəhayət, çar Rusiyasının "qanadları altına" sığınmağı bacardı.

Onun əsası XVIII əsrdə rus çarı I Pyotr tərəfindən qoyulduğu hesab olunur. Söhbət hayların Azərbaycan torpaqlarına qanunsuz köçlərindən gedir. I Pyotr 1724-cü ildə Kiçik Asiyadan ermənilərin kütləvi surətdə Cənubi Qafqaza köçürülməsi planını "orada xristianlığı gücləndirmək və imkan daxilində müsəlmanlığı sıxışdırıb çıxarmaq" üçün irəli sürdü və ilk köçlərin əsasını qoydu. Təbii ki, burada daha başqa səbəblər də vardı. O dövrdə Asiyada mərd və cəsarətli xalqlardan biri sayılan azərbaycanlılar kiminsə tabeliyində, boyunduruğu altında qalmaq istəmirdilər. I Pyotr azərbaycanlılara qonşu olaraq qapazaltı, "bir tikə çörək ver, ölənə kimi sənə köləlik etsin" ideyası ilə yaşayan hayları köçürmək fikrinə düşdü.

Haylar o vaxtdan bəri Şərqi Asiyadan və digər ölkələrdən bura saysız-hesabsız köç etməyə başladılar. Bununla da azərbaycanlılar öz torpaqlarında qaçqın vəziyyətinə düşdü. Azərbaycanın bir xalq kimi məhvinə nail olmaq istəyən qüvvələrin yürütdüyü etnik təmizləmə siyasəti nəticəsində Qarabağ zonasında sıx məskunlaşma prosesi sürətləndi. 1947-ci ilin 23 dekabrında SSRİ Nazirlər Sovetinin verdiyi qərar ilə ümumilikdə 100 min azərbaycanlı Ermənistandan Kür-Araz ovalığına köçürüldü. Qərara əsasən onların boşaltdığı evlərə xarici ölkələrdən ermənilər yerləşdirildi.

Ötən əsrin sonlarında Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü növbəti dəfə pozması, aqressorun çirkin əməllər törədətörədə buna hüquqi don geydirməyə çalışması, tarixi torpaqlarımızı işğal etməsi, bəşər tarixində daha bir nümunəsi olmayan qəddarlıqlar törətməsi nəticəsində bir milyondan çox soydaşımız didərginliyə məcbur edildi.

1989-cu ildən məcburi köçkün həyatı yaşayan soydaşlarımızın problemlərinin həlli ilə məşğul olan "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyi yaradıldı və tarixi haqq-ədalət bərpa olunduğu günə - Azərbaycan İkinci Qarabağ müharibəsində şanlı zəfərinə və ondan sonrakı dövrdə vətəndaşlarımızın mərhələli şəkildə öz doğma torpaqlarına qayıtması dövrünün başlanğıcına qədər öz fəaliyyətini uğurla yerinə yetirdi. Vaxtilə Azərbaycan torpaqlarında qurulan Ermənistan Respublikası ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olunması istiqamətində fəaliyyət göstərən Qərbi Azərbaycan İcması uğurlu işlər həyata keçirir.

Qərbi Azərbaycan İcması Ermənistandan köçə məcbur edilmiş azərbaycanlıların təhlükəsiz şəkildə geri qayıtmaları üzrə dialoqa başlamaq məqsədilə Ermənistanın baş naziri Nikol Paşinyana, eyni zamanda bu məsələ ilə bağlı Ermənistanın dialoqda iştirakını təşviq etmək çağırışı ilə BMT-nin Baş katibinə məktub ünvanlamışdır. BMT-nin Katibliyi İcmanın sözügedən məktublarını Baş Assambleyanın, Təhlükəsizlik Şurasının və İqtisadi və Sosial Şuranın rəsmi sənədləri kimi yaymışdır...

**Tacir SADIQOV,**
**"Respublika".**

# Doğma yurda qayıtmağı səbirsizliklə gözləyirik

**Prezident İlham Əliyevin ötən il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə səslənən fikirlər və doğma yurdumuza Qayıdış Konsepsiyası haqqında verilən təkliflər hər birimizin ürəyincə olmaqla, əzəli torpaqlarımıza qayıtmaq şansımızı qat-qat artırdı.**



Tarixi və əzəli torpaqlarımız olan indiki Ermənistanın ərazisindəki Kalinino rayonunun Soyuqbulaq kəndində anadan olan və deportasiya dövrünə qədər bu ərazidə yaşayan **Astan Mustafayev** əməkdaşımızla söhbətində bu günə qədər torpaq həsrəti ilə yaşadıqlarını və istəklərinin reallaşacağı günü gözlədiklərini bildirdi. Qeyd etdi ki, orada normal yaşamaq üçün özümüzə tam şərait yaratmışdıq. Lakin faşist siyasətinə əsir olan ermənilər bizimkilərin öz torpaqlarımızda yaxşı yaşamağına imkan vermirdi. Bu səbəbdən də imkan düşən kimi cinayətkar əməllərindən əl çəkmirdilər, soydaşlarımızı müxtəlif yollarla incidərək deportasiya edirdilər. Uşaq vaxtlarından yaxşı yadımdadır ki, böyüklərimiz erməni vandalizmi barədə mütəmadi danışırdılar. Soydaşlarımızın 1918-ci ildən başlanan deportasiyasının 1948-53-cü illərdə kütləvi xarakter aldığını və on minlərlə azərbaycanlının doğma yurdlarından didərgin salındıqlarını ürək ağrısı ilə xatırlayırdılar.

Həmsöhbətim qeyd etdi ki, 1980-ci illərdən başlayaraq davam etdirilən erməni vəhşiliyi 1987-ci ildən daha da ağırlaşdı. Soydaşlarımızı dövlət səviyyəsində ən kəskin formada incitməyə başladılar. Həmin vaxt Soyuqbulaq kəndində yaşayırdıq. 1988-ci ilin qış fəslinin çovğun vaxtında isə bu ərazilərdə yaşayan bütün azərbaycanlıları kütləvi surətdə deportasiyaya məcbur etdilər. Hamı kimi, mən də kiçikyaşlı uşaqlarımla birlikdə əliyalın yurdumuzu tərk etməyə məcbur oldum. Uşaqlarımızın kiçik, qocalarımızın isə xəstə olmasına baxmayaraq, özümüzlə evdən heç nə götürməyə imkan vermədilər. Həmin vaxt qohumlarımın yaşadıqları Balakən rayonu ərazisində məskunlaşmaq qərarına gəldik. Çünki kəndimizin havası da bu əraziyə uyğun idi. Bilirdik ki, başqa bölgələrə, xüsusilə, aran ərazisinə gedən soydaşlarımız kəskin iqlim dəyişikliyi ilə bağlı çox yaşaya bilmirdi.

1988-ci ildən Balakən rayonunun Poştbinə kəndində yaşayırıq və Qərbi Azərbaycanda olduğu kimi, təsərrüfatla məşğuluq. Burada şəraitimizin son dərəcə yaxşı olmasına baxmayaraq, doğma yurdumuz olan Qərbi Azərbaycan üçün çox darıxırıq və qayıdış gününü səbirsizliklə gözləyirik. Səmimi deyirəm, dövlət başçımızın Qərbi Azərbaycan icmasının bir qrup üzvü ilə görüşü doğma torpaqlarımıza qayıtmaq ümidimizi xeyli artırdı. Qayıdış gününün və əzəli torpaqlarımızı daha da inkişaf etdirmək anının tezliklə reallaşacağına əminik.

**M.NƏRİMANOĞLU,**
**"Respublika".**

# Tarixi haqqımız

**Qərbi Azərbaycana qayıdış bizim etnik və tarixi haqqımızdır. Bunu beynəlxalq ictimai fikirlə yanaşı, Ermənistanın da qəbul etməsi vacibdir. Sonuncu deportasiya zamanı o ərazilərdən qovulmuş soydaşlarımızın əksəriyyətinin bölgələrdəki evi, əmlakı, mülki əvəzi ödənilmədən əllərindən alınıb. Azərbaycanın mədəni-tarixi irsi olan Qərbi Azərbaycan torpaqları soydaşlarımızın dədə-baba yurdudur. Xalqımız - bu torpaqların doğma sahibləri minillər boyu bu ərazidə yaşamışlar. Lakin hayların Cənubi Qafqaza köçündən sonra kütləvi deportasiyalar, soyqırımları, şimaldan gələn təzyiqlər bizi bu yerlərdən didərgin salmışdır.**

44 günlük Vətən müharibəsi nəticəsində düşmən tapdağından azad edilmiş torpaqlarımızda məskunlaşmaqdan sonra qarşımızda duran ən mühüm məsələlərdən biri gecikmiş ədaləti bərpa etmək, bu torpaqlara soydaşlarımızı qovuşdurmaqdır. 1918-ci il mayın 28-də keçmiş İrəvan xanlığının ərazisindən hissə-hissə və planlı şəkildə soydaşlarımız öz tarixi torpaqlarından deportasiya olunub, azərbaycanlılara məxsus tikililər, habelə İrəvan şəhərindəki İslam abidələri, tarixi-memarlıq inciləri erməni vandalizmi tərəfindən təhrifə məruz qalıb. Təkcə 1988-1989-cu illərdə Ermənistandan 150 minə yaxın azərbaycanlı deportasiya edilib.

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qoca və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycan torpaqlarına köçürülməsi, digər tərəfdən isə XX əsrin sonlarında azərbaycanlıların öz doğma torpaqlarından zorla çıxarılaraq qaçqın və köçkün vəziyyətinə salınması öz əksini tapmışdır.

Tarixin saxtalaşdırıldığı, təhrif edildiyi və Azərbaycan torpaqlarının tarixi adlarının dəyişdirilərək süni surətdə Ermənistanı monoetnik dövlətə çevirmək siyasəti aparıldığı qeyd olunmuşdur. 300 minə yaxın azərbaycanlının yaşadıqları yerlərdən didərgin salınaraq öz doğma torpaqlarından köçürülməsini bildirən ulu öndər 1987-ci ildən Dağlıq Qarabağ ətrafında cərəyan etməkdə olan məlum hadisələrdən sonra Ermənistan SSR-in ərazisində azərbaycanlılara qarşı kütləvi etnik təmizləmə prosesinin misilsiz bir qəddarlıq və vəhşiliklə həyata keçirilməyə başlandığını qeyd etmişdir.

## *Ümummilli lider Heydər Əliyev azərbaycanlıların deportasiyaya məruz qalması ilə bağlı 2001-ci il avqustun 22-də Fərman imzalamışdır*

...baycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir. Bu məqsədlə 18 dekabr 1997-ci ildə ümummilli lider imzaladığı fərmanda 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə müəyyən işlərin görülməsinin vacibliyini göstərmişdi. 2001-ci il avqustun 22-də ulu öndər Heydər Əliyev "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" Fərman imzalanmışdır.

Fərmanda son iki yüz il ərzində bir tərəfdən Türkmənçay və Gülüstan müqavilələri imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə Azər...

Ulu öndər Heydər Əliyev imzaladığı bu fərmanla 1988-1992-ci illərdə Ermənistanda aparılan etnik təmizləmə nəticəsində öz yurd-yuvasından didərgin salınmış azərbaycanlıların daimi məskunlaşması problemlərinin və bununla bağlı digər məsələlərin həlli məqsədilə onlara verilən "Qaçqın" statusunun qüvvədə saxlanılmasına, respublikanın müvafiq şəhər və rayonlarında qaçqınların yığcam yerləşdirilməsi üçün qəsəbə şəklində fərdi yaşayış evlərinin tikilməsinə, kənd yerlərində məskunlaşan qaçqınlara müəyyən olunmuş qaydada həyətyanı və əkin üçün torpaq sahələrinin ayrılmasına, bir sözlə, qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və onların məskunlaşma, məşğulluq problemlərinin həll olunmasına göstəriş vermişdir.

**Musa BAĞIRLI,**
**"Respublika".**

*Qərbi Azərbaycan İcması:*

# Ermənistandan beynəlxalq hüquqazidd siyasətinə son verməyi tələb edirik

**Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin avqustun 24-də keçirilmiş iclasında üçtərəfli Bəyanatın qaçqın və məcburi köçkünlərin qayıdışı ilə bağlı müddəasının guya Azərbaycan tərəfindən icra edilməməsi barədə səsləndirdiyi iddialar və ölkəmizi ermənilərə qarşı etnik təmizləmə niyyətində olmaqda ittiham etməsi ilə bağlı bəyanat yayıb.**

İcmadan AZƏRTAC-a daxil olan bəyanatda bildirilib ki, öz ərazisindən və vaxtilə işğal etdiyi Azərbaycan ərazilərindən azərbaycanlıların hamısını qovmuş, bədnam monoetnik siyasət yürüdən Ermənistanın Azərbaycanı etnik təmizləmədə ittiham etməsi ikrah hissi doğurur. Ermənistanın humanitar məsələlərdən və insan hüquqlarından danışmağa heç bir mənəvi haqqı yoxdur. Konkret olaraq, qayıdış hüququ ilə bağlı qeyd edək ki, işğalçı Ermənistan ordusu 2020-ci ildə məğlub edilib Azərbaycan ərazilərindən çıxarılana qədər Ermənistan 30 il ərzində azərbaycanlı məcburi köçkünlərin öz evlərinə qayıtmasına imkan verməyib.

Qeyd olunub ki, Ermənistan öz ərazisindən qovduğu azərbaycanlıların qayıtmalarına hələ də imkan vermir. Həmçinin Azərbaycanın Qarabağ iqtisadi rayonunun Xankəndi, Xocalı, Kərkicahan, Meşəli, Qaradağlı kimi yaşayış məskənlərindən qovulmuş azərbaycanlı məcburi köçkünlər hələ də öz evlərinə qayıda bilmirlər. Azərbaycan isə 2020-ci il müharibəsindən dərhal sonra ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə təhlükəsiz şəkildə qayıtmasına imkan yaradıb və hazırda onları reinteqrasiya etməyə çalışır. Həmçinin Qarabağ bölgəsindən kənar Azərbaycan ərazilərində ermənilər tamhüquqlu Azərbaycan vətəndaşı kimi yaşamaqdadır.

"Vurğulamaq istərdik ki, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmasına şərait yaratmaq Ermənistanın beynəlxalq hüquqdan və üçtərəfli Bəyanatdan irəli gələn öhdəliyidir. Biz Ermənistan hökumətindən beynəlxalq hüquqazidd siyasətinə son verməyi, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə əməldə hörmət etməyi, Azərbaycan hökumətinin Qarabağ regionunda yaşayan erməniləri reinteqrasiya etmək səylərini sabotaj etməyi dayandırmağı və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmasına şərait yaratmağı tələb edirik", - deyə bəyanatda bildirilib. ■

# Hayların hay-həşiri fayda verməyəcək

(əvvəli 1-ci səhifədə)

Ermənistan tərəfindən isə bu təklifə etiraz olunduğu məktubda diqqətə çatdırılıb: "Laçın sərhəd-buraxılış məntəqəsinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan tərəfindən həyata keçirilən müvafiq tədbirlərin görülməsinin Ermənistan tərəfindən "blokada" kimi qiymətləndirilməsi əsassızdır". Qeyd olunub ki, Azərbaycanın sərhəd-keçid məntəqəsindən buraxılışla tənzimlənməsi istiqamətində göstərdiyi səylərə baxmayaraq, Ermənistan tərəfindən eyni təxribatın yenidən törədilməyəcəyi ilə bağlı zəmanət verilmədiyindən, hazırda Laçın yolundan yalnız Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi məqsədlər üçün istifadə olunduğu bildirilib.

İkili yanaşmalar sərgiləyən güc dairələrinin Ermənistanı şirnikləndirməsi, təxribat məqsədli bu şouya dəstək olması təəssüf doğurmaqla yanaşı, bölgədə vəziyyətin gərginləşməsinə səbəb olur. Misal olaraq, Ermənistan hakimiyyətinin hər vəchlə Ağdam-Xankəndi yolundan istifadə etməkdən boyun qaçırması, Laçın yolundakı özbaşınalığa BQXK-nın yardım etməsi, müxtəlif ölkələrdən olan səfirlərin və beynəlxalq simaların əraziyə cəlb edilməsini göstərmək olar. Müxtəlif manipulyasiyalara baxmayaraq, həqiqət budur ki, Ağdam-Xankəndi yolu Qarabağ iqtisadi rayonunda daxili şəbəkə və bu baxımdan da vacib nəqliyyat xəttidir. Bu yoldan istifadə bütövlükdə Qarabağ iqtisadi rayonunun inkişafına töhfə baxımından da vacibdir. Daxili nəqliyyat və logistik şəbəkə iqtisadi inkişaf üçün zəmin yaratdığından bu yolun intensiv istifadəsi əhəmiyyətlidir. Bu, Azərbaycanın Qarabağ bölgəsinin ermənilər yaşayan hissəsini təchiz etməyin ən qısa yoludur. Sovet dövründə keçmiş Dağlıq Qarabağın təchizatı məhz bu yol vasitəsilə həyata keçirilir, onun Azərbaycan SSR-in qalan hissəsi və SSRİ-nin digər respublikaları ilə əlaqələri təmin edilirdi. 1970-ci illərin sonlarında Azərbaycan SSR hökuməti Qarabağa Bakı-Ağdam-Xankəndi dəmir yolunun tikintisini də başa çatdırdı və bu, bölgənin avtomobil rabitəsini tamamladı.

Qeyd edilməli olan digər bir məqam da Rusiya sülhməramlılarının məsələyə qeyri-obyektiv yanaşmasıdır. Suveren ərazilərimizdə müvəqqəti yerləşdirilən sülhməramlı kontingentin dəstəyilə separatçı qüvvələrin etiraz aksiyalarına başlamasının ən böyük səbəbi də Brüssel görüşündə müzakirə olunan Ağdam-Xankəndi yolunun istifadə olunması təklifi olub. Ermənilərin onlara təklif olunan yeni humanitar yoldan imtina etməsinin ən böyük səbəbi regionda yaranan yeni reallıqlarla barışmamasıdır. Onlar hələ də 2020-ci ildən əvvəlki dövrdə olduqlarını zənn edirlər. Separatçı rejim illərdir Qarabağdan Ermənistana və ya əks-istiqamətdə sorğu-sualsız hərəkət edib. İndi isə onların belə bir şansı olmadığından əllərində əsir saxladıqları erməni sakinlərindən siyasi məqsədlər üçün istifadə edirlər.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də məsələ ilə bağlı dəfələrlə qeyd edib ki, Ağdam-Əsgəran-Xankəndi yolu bütün lazımi yüklərin daşınması üçün açıqdır: "Ağdam-Əsgəran-Xankəndi yolu hazırdır, fəaliyyət göstərir və bütün lazımi yüklərin daşınması üçün açıqdır. Ağdamla Xankəndi arasında cəmi 23 km məsafə var. Diplomatik korpus və beynəlxalq media nümayəndələri ilə birlikdə yoldayıq və Əsgərana tərəf baxırıq. Azərbaycan divarlar yox, yollar çəkir!".

Ermənistanın xain planları bir-bir suya düşür. Artıq onların hay-həşirinə anti-Azərbaycan blokundan başqa heç kim reaksiya vermir. Bu çərçivədə işğaldan azad olunan ərazilərdə səfərdə olan Türkiyənin media nümayəndələri bölgədəki şoudan əyani xəbərdar oldular. Bu da öz növbəsində geniş kütlələrin hadisəyə obyektiv yanaşma sərgiləməsi üçün əsas rol oynayır. Avqustun 14-də media nümayəndələri Zəngilandan sonra Laçına gələrək əvvəlcə Laçın dövlət sərhəd-buraxılış məntəqəsinə baş çəkiblər. Ermənilərin dövlət sərhəd-buraxılış məntəqəsindən keçidini izləyən qonaqlar bütün prosedurlarla yaxından tanış olublar.

Digər tərəfdən, avqustun 16-da BMT Təhlükəsizlik Şurasının ermənilərin yaşadığı Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın-Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranmış "humanitar böhran"ın müzakirəsi üçün təcili iclası zamanı Ermənistanın rəzil duruma düşməsi buna əyani misaldır. Sözügedən iclasın baş tutmasından əvvəl Ermənistan tərəfi əsaslı nəticə əldə edəcəyini güman etsə də, iclas onların diplomatik müstəvidəki növbəti fiaskosu ilə nəticələndi.

Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev iclasda çıxış edərək Ermənistanın beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyadan danışaraq Azərbaycan dövlətinin bu məsələ ilə bağlı mövqeyi barədə beynəlxalq arenada əsaslı fikir formalaşdırdı. Qarabağ bölgəsinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olduğunu və orada yaşayan etnik ermənilərin Azərbaycanın sakinləri hesab edildiyini vurğulayan Yaşar Əliyev bildirib ki, Azərbaycan hökuməti bu sakinlərin zəruri mallara çıxışını təmin etmək, onlar üçün müvafiq yaşayış şəraiti yaratmaq əzmindədir. Bu məqsədlər beynəlxalq hüquqa və beynəlxalq humanitar hüququn prinsiplərinə tam uyğundur ki, bu da Azərbaycanın sözügedən standartlara riayət etməkdə sadiqliyini nümayiş etdirir.

Azərbaycan regional sabitlik və inkşaf üçün dayanıqlı sülh istəyir. Bu ilin sonuna doğru imzalanması nəzərdə tutulan sülh müqaviləsinin vaxtının uzadılması regional destabilliyi qoruyub saxlamaqla yanaşı, hayların bölgədə təxribatlar törətməsinə də zəmin yaradır. Odur ki, beynəlxalq hüquq aqressora qarşı adekvat tədbirlər görməli və Ermənistan tərəfi sülhə məcbur edilməlidir. Əks halda, səbir kasası artıq dolmaq üzrə olan Azərbaycan tərəfi Xankəndidəki xunta rejiminə və yeni müharibə iddiasında olan Ermənistan hakimiyyətinə qarşı əsaslı tədbirlər görəcək.

**Nurlan ABDALOV,**
**"Respublika".**



# Hərbi qulluqçularımız beynəlxalq təlimdə iştirak edirlər

**Azərbaycan Ordusunun hərbi qulluqçuları Gürcüstanın Tbilisi şəhərində "Agile Spirit 2023" çoxmillətli hərbi təlimində iştirak edirlər.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, taktiki və komanda-qərargah təlimində 21 ölkənin nümayəndələri iştirak edirlər.

Beynəlxalq təlimdə əsas diqqət qarşılıqlı əlaqədə fəaliyyətlər zamanı döyüş uzlaşmasının təmin edilməsi, təcrübə mübadiləsi və peşəkarlığın artırılması, eləcə də şəxsi heyətin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsinə yönəldilib.

Qeyd edək ki, çoxmillətli təlim Gürcüstanda 11-ci dəfədir təşkil edilir. ■



# İQTİSADİYYAT

## Cocuq Mərcanlı abad yaşayış məskənidir




**Artıq bir neçə aydır ki, işğaldan azad olunmuş yurd yerlərimizə səbirsizliklə gözlənilən qayıdış dövrü başlanmışdır. Əvvəlcə Ağalı kəndi, sonra Laçın, bu günlərdə isə Füzuli şəhəri öz qapılarını əzəli və əbədi övladlarının üzünə açmaqdadır. Bəli, 44 günlük tarixi qələbəmiz sayəsində doğma torpaqlarımız düşmən tapdağından xilas edildi. Bu gün Qarabağın demək olar ki, bütün istiqamətlərində geniş abadlıq-quruculuq işləri gedir, infrastruktur yenilənir. Şübhə yoxdur ki, bərəkətli torpağımızın üzərində bərqərar olan kənd və şəhərlər düz altı il bundan əvvəl işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndi kimi, abad yaşayış məkanına çevriləcək. Bu gün Azərbaycanın ən gözəl, baxımlı yurd yerlərindən biri olan Cocuq Mərcanlı şahidi olduğumuz Böyük Qayıdışın ilk qaranquşudur.**

Bəli, Cocuq Mərcanlı artıq öz simasını dəyişmiş, son dərəcə abad, gözəl yaşayış məkanına çevrilmişdir. Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini **Tapdıq Nəsirov** artıq müasir qəsəbə həddinə çatmış Cocuq Mərcanlının bugünkü həyatından fərəhlə söz açır:

- Bu gün Cocuq Mərcanlı, sözün həqiqi mənasında, abad yaşayış məkanıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən kənddə 27 hektar ərazidə geniş tikinti-bərpa quruculuq işləri aparılmışdır. 150 fərdi yaşayış evi, 96 şagird yerlik ümumtəhsil məktəbi, məscid, uşaq bağçası, klub-icma mərkəzi, həkim məntəqəsi, poçt, inzibati bina, elektrik yarımstansiyası, hidrometereoloji stansiya, "Azəravtoyol" ASC-nin 13 saylı xüsusi təyinatlı yol istismar müəssisəsi, "Azərsu" ASC-nin Cocuq Mərcanlı sahəsi və digər müvafiq infrastruktur yaradılmışdır. Cənab Prezident 14 iyun 2017-ci il tarixində Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpadan sonra açılışında iştirak edərək birinci mərhələdə köçürülən 50 ailənin öz doğma kəndinə qayıtmalarına xeyir-dua vermişdir. Sonrakı mərhələlərdə isə ailələrin sayı 150-yə çatmışdır.

Azərbaycan Prezidentinin "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün əlavə tədbirlər haqqında" 14 fevral 2018-ci il tarixli sərəncamı əsasında Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin, eləcə də Füzuli rayonunun Mirzənağılı və Qazaxlar kəndlərinin ümumilikdə 680 hektar əkin sahəsini suvarma suyu ilə təmin edən nasos stansiyasının, su nəqledici kanalın və 2800 metr uzunluğunda təzyiqli boru kəmərinin tikintisi aparılmış, 2137 metr uzunluqda beton kanal inşa olunmuşdur. Görülən operativ işlər nəticəsində Cocuq Mərcanlı kəndinin və Füzuli rayonunun Mirzənağılı və Qazaxlar kəndlərinin nəzərdə tutulan əkin sahələri suvarma suyu ilə təmin edilir.

Kənd sakinləri doğma yurdlarında özlərini tam rahat hiss edir, əkin-biçinlə və heyvandarlıqla məşğul olurlar.

Məşğulluq sahəsinin əsasən kənd təsərrüfatı olduğu nəzərə alınaraq birinci növbədə ANAMA ərazilərdə yerləşən torpaqların minalardan təmizlənməsini həyata keçirmiş, sonra isə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən ərazidə torpaqların inventarizasiyası aparılmış, ailə üzvlərinin hər birinə 0,25 hektar olmaqla əkin sahəsi istifadəyə verilmişdir.



Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Cocuq Mərcanlı kəndində sakinlərin məşğulluğunun təmin olunması və sosial rifah səviyyəsinin artırılması, qayıdış prosesinin dəstəklənməsi məqsədilə bir sıra layihələr həyata keçirilir. Bu istiqamətdə Nazirliyin həyata keçirdiyi ilk layihə olan yem emalı müəssisəsi Cocuq Mərcanlı kəndində 2018-ci ilin fevralın 2-də fəaliyyətə başlayıb. Müəssisədə hər birinin gücü saatda 2 ton olan toxum təmizləyən, yem üyüdən, ot doğrayan avadanlıqlar quraşdırılmış, yeni iş yerləri açılmışdır. Eyni zamanda, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Türkiyə Respublikasının Azərbaycandakı Səfirliyinin birgə təşkilatçılığı ilə Cocuq Mərcanlı kəndində istixana və arıçılıq təsərrüfatları yaradılmışdır.

Cocuq Mərcanlı kəndində suvenir istehsalı müəssisəsinin də tikintisinə başlanılıb. Azərbaycan hökumətinin və Türkiyəli İş Adamları İctimai Birliyinin birgə layihəsi əsasında tikilən bu müəssisədə istehsal sahəsi və sərgi zalının fəaliyyət göstərməsi və istehsal olunacaq məhsulların "Cocuq Mərcanlı" brendi ilə satışa çıxarılması nəzərdə tutulur.

Cocuq Mərcanlı kəndində həyata keçirilən layihələrin birinci mərhələsi çərçivəsində 15 ədəd hər biri 160 metr kvadrat sahəyə malik polietilen örtüklü tunel tipli istixanalar qurulmuş və 15 ailənin hər birinə 10 arı ailəsi olmaqla cəmi 150 arı ailəsi verilmişdir. Həmçinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi tərəfindən 25 ailə özünəməşğulluq tədbirinə cəlb edilərək 13 ailəyə 26 baş damazlıq inək, 12 ailəyə isə 252 baş damazlıq qoyun verilmişdir.

Cənab Prezidentin tapşırığına uyğun olaraq Cocuq Mərcanlı sakinlərinin, eləcə də kəndə gələn çoxsaylı qonaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün kənddə 14 min kvadratmetr ərazidə mədəniyyət və istirahət parkı salınaraq 2018-ci ilin sonunda istifadəyə verilmişdir.

Bəli, el arasında deyildiyi kimi, həyat davam edir. Cocuq Mərcanlı bugünkü varlığı ilə sübut edir ki, Azərbaycan güclü dövlətdir. Doğma torpaqlara qayıdış günləri xalqımızda əsl bayram ovqatı yaradır. Lap yaxın vaxtlarda işğaldan azad edilmiş torpaqlarımız bütünlüklə Cocuq Mərcanlı kimi gözəl yaşayış məkanına çevriləcəkdir.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

## "Yaşıl marafon" təbiətə gözəlliklər bəxş edir




**Təbiətin "oksigen fabriki" adlandırılan meşələr planetin quru səthinin üçdəbirini tutur. Yer kürəsinin qiymətli təbii sərvəti olan meşə örtüyünün sahəsi 4 milyard hektardır. Meşələrin əsas xüsusiyyətlərindən biri bitki örtüyünün altında formalaşan mikroiqlimdir.**

Planetin "ağciyərləri"nin mikroiqlimi ətraf mühitin iqlimindən fərqlidir. Belə ki, açıq ərazilərdən fərqli olaraq, meşədə qış mövsümündə havanın temperaturu 3-5° C yüksək olur. İsti yay günlərində isə əksinə, hərarət bir neçə dərəcə enir.

Yer üzərində insan həyatı üçün ən mühüm ünsürlər olan oksigen, su kimi əsas maddələrin tarazlığı meşələr tərəfindən təmin edilir. Meşələr havadakı karbon qazını və zəhərli maddələri udur, nəfəs aldığımız havanı oksigenlə zənginləşdirir, tozdan təmizləyir. Ağaclar bir növ süzgəc, filtr rolu oynayır. Meşələr həm də torpaqda su balansını nizama salır, kəskin iqlim dəyişikliyinin, sellərin və torpaq sürüşməsinin qarşısını alır, güclü küləklərin təsirini zəiflədir,



sovrulan qum kütlələrinin hərəkətini saxlayır.

Bir sözlə, meşələr, o cümlədən Kür qırağının meşələri gözəlliklər məskənidir. Bu məskənin bir hissəsi Muğan-Şirvan düzlərindən keçən Kür çayının sahillərindəki tuqay meşələridir. Sabirabad Regional Meşə Təsərrüfatı Mərkəzi ölkənin 7 rayonunda mövcud olan Kürqırağı meşələrə nəzarət edir. Mərkəzin direktoru **Vüsal Talıbovla** söhbət zamanı aydın olur ki, hazırda meşəçilərin əsas vəzifəsi meşələri yayın isti günlərində yanğından qorumaqdır.

- Fövqəladə Hallar Nazirliyinin ərazi üzrə xidmət nümayəndələrinin iştirakı ilə meşəçilərlə, eləcə də meşələrin yaxınlığında yerləşən yaşayış məntəqələrinin əhalisi ilə görüşlər keçirir, kütləvi izahat işləri aparırıq. Mərkəzin xidməti ərazisi 9557 hektar meşəni əhatə edir. Meşələrin qorunmasında 5 meşəbəylik sahəsi məsuliyyət daşıyır.

Vüsal Talıbov əlavə edir:

- Bildiyiniz kimi, ölkəmizdə son illər son dərəcə xeyirxah bir işə start verilmişdir. Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin sədri Leyla xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" keçirilir. Məqsəd yaşıllıqların sayını artırmaq, istər meşələrdə, istər park və xiyabanlarda ağaclara aqrotexniki qulluq göstərmək, bir sözlə, təbiətə gözəlliklər bəxş etməkdir. Bizim Mərkəz lap ilk günlərdən bu təşəbbüsə qoşulmuşdur. Təşəbbüsdən sonra yeni yaşıllıq zolaqları salınmış, meşələr daha da zənginləşmişdir.

Tuqay meşələri daim suvarılmalı, bərpa üçün tarlaqoruyucu zolaqlar çəkilməlidir. Qoruyucu zolaqlar meşənin genetik fonduna aid olan ağac növlərindən əkilməlidir. Tarlaqoruyucu meşə zolaqları torpağın su rejimini normada saxlayır, nəticədə çox buxarlanma getmir. Qədim meşə fondunda olan ağaclardan çürüyüb qalan kök sistemi oyuqlar yaradır və suvarma zamanı su itkisinə səbəb olur. Torpaq hazırlığı işlərində buna da fikir verilməlidir. Əks təqdirdə əkinlər uğursuz olur. Meşəçilər bu şərtlərə əməl edirlər. Bu ilin yaz mövsümündə Sabirabad və Şirvan şəhəri ərazilərində 30 hektarda meşə zolaqları salmışıq. Mərkəz 4 hektar sahədə tinglik təsərrüfatı yaradıb. Təsərrüfatda göyrüc, iydə, qarağac, qovaq və digər ağac fidanları göyərdilir. Meşə fondunun zənginləşməsi daima diqqət mərkəzindədir.

Direktor təəssüf hissilə bir daha bildirir ki, bütün səylərə baxmayaraq Azərbaycanda yerüstü yanğınlar çox olur. Yanğınların başvermə səbəbləri arasında antropogen amillər birinci yerdədir. Meşələrdə ocaq qalanması, siqaret kötüklərinin, şüşə butulkaların atılması və onların Günəşin perpendikulyar şüalarına məruz qalaraq qızması ətrafdakı ot örtüyünün alışmasına və yanğına səbəb olur.

Meşələr əvəzsiz təbii sərvətimizdir. Ölkəmizdə meşələrin qorunması, yaşıllığın artması istiqamətində müxtəlif tədbirlər, o cümlədən ağacəkmə aksiyaları həyata keçirilir. Meşələri, yaşıl örtükləri qoruyub və zənginləşdirməyi hər kəs özünə vətəndaşlıq borcu hesab etməlidir.

**T.YADULLAOĞLU,**
**"Respublika".**

## Azərbaycanla Özbəkistan arasında imzalanan sənədlər strateji əhəmiyyətlidir







**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev avqustun 22-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib. İki ölkə liderinin görüşü zamanı Özbəkistan-Azərbaycan strateji tərəfdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi və prioritet istiqamətlər üzrə praktiki əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.**

Ümumilikdə, bu səfər bir çox baxımdan diqqət çəkir. Xüsusilə qeyd etmək lazımdır ki, Mirziyoyev Prezident seçildikdən sonra ilk dövlət səfərini məhz Azərbaycana edib. Diplomatiyada bu, səfər edilən ölkənin önəmini göstərir. **Siyasi şərhçi Turan RZAYEV** də bildirir ki, rəsmi Daşkənd Bakını etibarlı tərəfdaş və strateji müttəfiq hesab edir:



"Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub. İki ölkə arasında müxtəlif sahələri əhatə edən 20 sənəd imzalanıb. 2022-ci ilin iyun ayında Prezident İlham Əliyevin Özbəkistana səfəri zamanı ikitərəfli münasibətlərin gələcək trayektoriyasını müəyyən edən bir sıra mühüm sənədlər imzalanmışdı. Prinsip etibarilə imzalanan 20 yeni sənəd bundan öncəki sənədlərin davamı və daha təkmil variantlarıdır. Ümumilikdə isə iki ölkə arasında bu günə qədər 160-dan çox saziş imzalanıb. Bakıda imzalanan 20 sənədin 3-ü xüsusi diqqət çəkir. Birincisi, energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsi haqqında sazişdir. Çünki hazırda dünyada enerji resursları uğrunda mübarizə gedir və bu resursları əlində tutan ölkələr geosiyasi arenada əsas söz sahibidirlər. Bu baxımdan energetika sahəsində əməkdaşlıq iki ölkə arasında qarşılıqlı əlaqələrin əsas sahəsini təşkil edir. Rusiya-Ukrayna müharibəsi fonunda Qərbin enerji resurslarına, xüsusilə mavi qaza tələbatı artıb. Azərbaycan isə bu vəziyyətdən faydalanaraq Avropa bazarında əsas enerji oyunçusu olmaq istəyir. Müəyyən mənada buna nail olmuşuq. Lakin Qərbin mavi qaza və digər enerji resurslarına artan tələbini rəsmi Bakı təkbaşına qarşılaya bilməz. Azərbaycan region ölkələri ilə bu sahədə əməkdaşlıqda maraqlıdır. SOCAR və "Uzbekneftegaz" uzun müddətdir ikitərəfli əməkdaşlığın genişləndirilməsi barədə danışıqlar aparırlar. "Uzbekneftegaz"ın Azərbaycanın, SOCAR-ın isə Özbəkistanın neft-qaz təşəbbüslərinə cəlb edilməsi üzrə planlar inkişaf etdirilib. "Energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsi haqqında Saziş" də məhz bu inkişaf planlarının rəsmi şəkildə təsdiqlənməsi deməkdir.

İkinci vacib sənəd isə Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının Katibinin Xidməti ilə Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının Aparatı arasında əməkdaşlıq haqqında Memorandumdur. Özbəkistanla Azərbaycanı bir-birinə yaxınlaşdıran səbəblər var. Belə ki, hər iki ölkə yerləşdiyi regionda böyük güclərin hədəfindədir.

Azərbaycan kimi, Özbəkistan da regionda sərbəst siyasət aparmaq istəyir. İki ölkənin bu niyyəti onları bir-birinə yaxınlaşdırır. Hesab etmək olar ki, bu memorandum iki ölkəni xarici siyasətdə ortaq addımlar atmasına, ortaq maraqlar formalaşdırmasına səbəb olacaq. Müqayisə üçün deyək ki, Türkiyə və Azərbaycan uzun illərdir xarici siyasətdə atılan addımları qarşılıqlı şəkildə müzakirə edir, ortaq qərarlar verir.

Üçüncüsü isə, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında hərtərəfli strateji tərəfdaşlığın dərinləşdirilməsinə dair 2023-2024-cü illər üzrə Yol Xəritəsidir. İmzalanan 20 sənəd içərisindən ən önəmlisi məhz budur. Belə ki, Azərbaycan və Özbəkistan bir çox sahədə geniş əlaqələrə malikdir. Bu əlaqələrin 2023-2024-cü illər ərzində daha da dərinləşdirilməsi ondan xəbər verir ki, Daşkənd Bakı ilə əlaqələri mərhələli şəkildə inkişaf etdirmək istəyir. Əlbəttə, Daşkəndin bu istəyində qeyri-adi heç nə yoxdur, lakin prosesin yekunu mümkündür ki, Türkiyə ilə imzalanan Şuşa Bəyannaməsi kimi, Füzuli və ya Daşkənd bəyannaməsi ilə yekunlaşsın. Yəni Azərbaycan-Özbəkistan münasibətləri rəsmi şəkildə hərbi-siyasi müttəfiqlik səviyyəsinə qaldırıla bilər".

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

*Saatlı*

## Məhsul istehsalında artım var

**Respublikamızın iri kənd təsərrüfatı rayonlarından olan Saatlıda aqrar sahənin inkişafına xüsusi diqqət yetirilir. Bunu cari ilin 6 ayı ərzində əldə olunan göstəricilər bir daha sübut edir. Rayonda 2023-cü ilin 6 ayı ərzində istehsal edilən kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə ümumi dəyəri ilkin hesablamalara əsasən, 114 milyon 697,1 min manat təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 17879,8 min manat və ya müqayisəli qiymətlərlə 7,9 faiz çoxdur. İstehsal olunmuş kənd təsərrüfat məhsullarının 74 milyon 127,4 min manatı bitkiçilik məhsullarının payına düşüb.**



Əldə etdiyimiz məlumata görə, 53 min 589,3 hektar sahədə payızlıq və yazlıq bitkilərin 46 min 636,2 hektarı və ya 87,0 faizi əhali və fərdi sahibkar təsərrüfatlarının, 6 min 953,1 hektarı və ya 13,0 faizi kənd təsərrüfatı müəssisələrinin payına düşüb. Rayon üzrə ümumi əkin sahəsinin əsas hissəsini payızlıq taxıl, yem bitkiləri, pambıq, bostan, dən üçün qarğıdalı, tərəvəz, kartof, lobya, günəbaxan təşkil edib. 19 min 543,5 hektar sahədə taxıl məhsulu biçilib və sahədən 79 min 822,5 ton "sarı kəhrəba" toplanılıb ki, bu da hər hektardan 40,8 sentner məhsul deməkdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisə etdikdə taxıl məhsulu hər hektardan 0,2 sentner çox olub. Bundan əlavə, 364,0 hektar sahədən 7 min 192,9 ton kartof, 518,9 hektar sahədən 5 min 903,5 ton tərəvəz, 1484,0 hektar sahədən 41 min 319,2 ton bostan məhsulu və bağlardan 2 min 518,7 ton müxtəlif növ meyvə və giləmeyvə məhsulu toplanılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 733,8 ton tərəvəz, 908,2 ton kartof, 1509,2 ton bostan, 90,2 ton müxtəlif növ meyvə və giləmeyvə məhsulu çox tədarük olunub. Hazırda kənd təsərrüfatı məhsullarının yığımı davam edir. Bununla yanaşı, fermerlər payızlıq əkinlərə də hazırlıq işləri görürlər.

**T.HÜSEYN,**
**"Respublika".**

*Qəbələ*

## Yay şumu davam etdirilir

**Bu ilin payızında Qəbələ rayonunda gələn ilin məhsulu üçün 19 min 500 hektaradək sahədə payızlıq dənli bitkilərin səpini proqnozlaşdırılır.**

Rayon icra hakimiyyətindən verilən məlumata görə, hazırda təsərrüfatlarda payızlıq dənlilərin səpini üçün yay şumu davam etdirilir. İndiyədək təsərrüfatlarda 2 min 820 hektar sahədə yay şumu aparılıb. Builki mövsümdə isə rayonda 15 min 465 hektar sahədən 44 min 430 ton taxıl istehsal olunub. İstehsal olunan taxılın 32 min 712 tonu buğda, 11 min 718 tonu arpadır. Taxıl biçini başa çatdıqdan sonra rayonun təsərrüfatlarında 350 hektar sahədə silos üçün təkrar qarğıdalı əkilib. Təkrar əkinlər əsasən Vəndam, Nic qəsəbələri və Tüntül kəndinin ərazilərində aparılıb.

**M.QULUYEV,**
**"Respublika".**



*Almaniyalı alim Mixael Raynhard Hess:*

# Okamponun rəyi erməni maraqlarına onun güclü dəstəyini ifadə edir

*Almaniyalı tanınmış alim, Qafqaz regionunun tədqiqatçısı Mixael Raynhard Hess Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) keçmiş prokuroru Luis Moreno Okamponun qərəzli rəyi ilə bağlı müfəssəl və əsaslandırılmış açıq etiraz məktubu göndərib və onu özünün feysbuk səhifəsində paylaşıb.*

*AZƏRTAC həmin məktubu təqdim edir:*

"Hörmətli Luis Moreno Okampo,

Aşağıdakı açıq məktubdur və mən onu həm sizə göndərirəm, həm də eyni vaxtda feysbuk səhifəmdə paylaşıram.

Mən "Dağlıq Qarabağ" məsələsi ilə bağlı bir sıra kitablar və məqalələr dərc etdirmiş tədqiqatçı kimi, mövzu ilə bağlı avqustun 7-də dərc etdiyiniz ekspert rəyinə bəzi şərhlər verməyə cəsarət edirəm.

Təəssüf ki, sizin erməni maraqlarına güclü dəstəyinizi ifadə edərkən irəli sürdüyünüz bəzi iddialar açıq-aşkar diqqət yayındırmasa da, ən azı birmənalı deyil. Sizin "Ermənilər tərəfindən "Artsax" kimi tanınan "Dağlıq Qarabağ"da əsasən etnik ermənilər yaşayıblar və XX əsrdən çox müddət ərzində orada yaşayıblar" (6-cı səhifə) fikriniz tarixi keçmişdən xəbəri olmayanlar tərəfindən "Artsax" adlandırılan bölgənin 20 əsrdən artıqdır ki, etnik ermənilərin məskunlaşdığı ərazi kimi şərh edilə bilər. Düzdür, sizin fikirləriniz qeyri-müəyyən olduğu üçün başqa cür şərh oluna da bilər. Məsələn, bu, ermənilərin 20 əsrdir orada yaşadığını söyləmək kimi başa düşülə bilər. Lakin bu, onların mütləq üstünlük təşkil etməsi anlamına gəlmir. Çox istərdim ki, bu cür qeyri-müəyyənlik aradan qaldırılsın. Dünyanın aparıcı hüquqşünaslarından biri kimi, çox mühüm məsələlərdə anlaşılmazlığın aradan qaldırmağın nə qədər vacib olduğunu bilirsiniz.

Faktiki mahiyyətə gəldikdə isə heç bir erməni etimologiyası olmayan "Artsax" sözünün mənasının sizin qeyd etdiyiniz xronoloji sıralamada həqiqətən təsdiqlənə biləcəyi şübhə doğurur. Strabonun (təqribən e.ə.63-e.23) qeyd etdiyi "Orçistena" toponiminin (Bax, Mamedovanın istinad etdiyi erməni müəllifi Vardqes Mikaeljanın əsərləri, 1995: 110) "Artsax" ilə eyniləşdirilməsinin mümkünlüyünə dair erməni iddiaları yalnız spekulyativ xarakter daşıyır. Məndə olan məlumata görə, erməni dilinə heç bir aidiyyəti olmayan "Artsax" toponimi bizim eranın V əsrinədək geniş yayılmamışdı. Əlbəttə, nə bizim eranın başlanğıcı, nə də V əsrdən sonrakı dövrlər daxil olmaqla sonrakı müasir dövrlər üçün bizdə dəqiq demoqrafik statistika yoxdur. Bu o deməkdir ki, sözügedən bölgədə "əsasən ermənilərin yaşadığı" barədə fikrinizin bir şərhi də sadəcə olaraq spekulyativ xarakter daşıyır.

Bununla əlaqədar onu da xatırlatmaq istərdim ki, "Dağlıq Qarabağ" termini 1918-ci ildən sonra yaranmışdır və "Artsax" termini ən azı 1045-ci ildən 1921-ci ilə qədər rəsmi siyasi və ya inzibati termin kimi istifadə edilməmişdir. "Dağlıq Qarabağ" termininin ilk istifadəsinə gəlincə isə bu, ilk dəfə çox güman ki, Qarabağ ermənilərinin iyulun 22-dən 26-dək Azərbaycanın Şuşa şəhərində keçirilmiş I qurultayında istifadə edilib (ətraflı məlumat üçün bax: Mikaeljan et al. 1992: 13).; Avakian 2021 [2005]: 5; müq.Vəliyev/ Şirinov 2016: 66). Sizin öz versiyanızda dediyiniz kimi, əsrlər boyu fasiləsiz olaraq bu günə qədər işləndiyi güman edilən bir termin kimi görünən "Artsax" termini ən azı 1921-ci ilə qədər hətta ermənilərin özləri tərəfindən geniş istifadə edilməmişdi. Bunu, məsələn, Ermənistan SSR Xalq Komissarları Sovetinin 1921-ci il 12 iyun tarixli bəyannaməsi də sübut edir (rus dilində "Sovet narodnıx komissarov"). Bu bəyannamənin biri rus, biri erməni olmaqla iki versiyası mövcuddur. Erməni dilindəki versiyada rus dilindəki "Dağlıq Qarabağ" termini (rus dilində qeyd edilmiş) ermənicə "Լեռնային Ղարաբաղ" (Lērnayin Łarabał) "Mountainous Karabakh" (bax: Mikaeljan et al. 1992: 636) erməni ifadəsi ilə tərcümə edilmişdi və bu ifadə ermənicə "dağlıq" sözündən və həm tarixi, həm də etimoloji cəhətdən Azərbaycan toponimi olan "Qarabağ" sözünün erməni dilində transkripsiyasından ibarətdir. Lakin bu sənəddə "Artsax"dan əsər-əlamət yoxdur. Qarabağın ənənəvi azərbaycanca adının əvəzində "Artsax"dan istifadə yalnız sonradan həm Sovet İttifaqı daxilində, həm də xaricdə erməni separatçı, şovinist və anti-Azərbaycan təbliğatı nəticəsində yayılmağa başlayıb. Eyni zamanda, bölgənin ənənəvi adı olan "Qarabağ" əsrlər boyu müxtəlif inzibati və siyasi sənədlərdə istifadə olunub və bu günə qədər istifadə olunmaqdadır (mövzu ilə bağlı bax: Heß 2020). Əgər fikirləşdiyiniz kimi, "Artsax" belə mühüm inzibati-siyasi, hətta tarixi toponim idisə, nə üçün Ermənistan SSR-in aparıcı siyasi orqanlarından birinin üzvləri 1921-ci ildə Azərbaycan sözündən istifadə etməli idilər? 1045-ci ilə istinad etməyimə gəlincə isə, bu, həqiqətən də Antik və Orta əsrlər dövründə mövcud olan Artsax vilayətinin erməni dövlətinin bir hissəsi olduğunu söyləməyin mümkün olduğu son il idi (Kalpakian 1993: 112). O vaxta qədər bu əyalətin tabe olduğu Baqratid Krallığı 1045-ci ildə Bizans imperiyasının (Asenbauer 1993: 21; Krikorian 1993: 71, 74), 1064-cü ildə isə Səlcuqların hakimiyyəti altına keçdi (Vryonis 1971: 89; Asenbauer: 391912; : 71, 74) və




onun sovet Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) ilə qismən üst-üstə düşən ərazisi sonralar heç vaxt erməni siyasi idarəçiliyi altına keçməyib. Bu mövzuda sitat gətirdiyiniz yeganə (qeyri-ekspert, jurnalist) istinadda (Light və Fulconbridge) iddia edilir ki, "Xristian olan ermənilər bu ərazidə eramızdan bir neçə əsr əvvələ qədər uzanan uzun tarixi hökmranlıq etdiklərini iddia edirlər. Bununla belə, ərazidə (Qarabağ) iddia edilən "hakimiyyət" 1045-ci ildən sonra sona çatdığı üçün onun "qədim tarixə" aid olduğunu söyləmək olmaz. Təəssüf ki, Qarabağın tarixini şərh etmək üçün əsas kimi görünən yeganə istinadınız açıq şəkildə təhrifə əsaslanır.

Bu məqamda, icazə verin, Layt və Faulkonbricin (Felix Light and Guy Faulconbridge) xülasəsindəki başqa bir yanlışlığı diqqətinizə çatdırım. Deyilir ki, "Əsrlər boyu anklav farsların, türklərin, rusların, osmanlıların və sovetlərin təsiri altına düşüb". Bu, uydurma bəyanatdır, çünki Qarabağın heç bir hissəsi, o cümlədən "Dağlıq Qarabağ" heç vaxt anklav olmayıb. Ümumiyyətlə, Layt və Faulkonbric nə etibarlı mənbə, nə də etibarlı tarixçilər hesab edilə bilməz. Onların son dərəcə qısa jurnalist işi Ermənistan-Azərbaycan münaqişəsi dair informasiya ilə heç bir əlaqəsi olmayan cızma-qaradır. Bu, Qarabağ tarixinin imicini formalaşdırmaq üçün yeganə əsas kimi istifadə edilməməlidir.

"Artsax" antik termini arasındakı fərqi aradan qaldırmaq və onun XX əsrdə erməni millətçiləri tərəfindən müasir şəkildə yenidən təqdim edilməsi ilə bağlı olan iş işiniz, əslində, eramızdan əvvəllərdən erməni toponimik, demoqrafik, siyasi və tarixi davamlılığını təklif etmək istəyən müasir erməni diskursunu təbliğ edir. Lakin belə bir davamlılıq yoxdur.

Tarixi xülasənizin qalan hissəsində də bəzi faktoloji tarixi səhvlər var. Yarımfəslə 1988-ci il 20 fevral bəyanatı (a) ilə başlamaqla siz bu bəyannamənin 1987-ci ildə və hətta ondan əvvəl başlamış sistematik milli və qismən şovinist, təcavüzkar erməni separatçı hərəkatının nəticəsi olduğu faktını ört-basdır etmiş olursunuz. Sizin "Dağlıq Qarabağ"ın Ermənistana verilməsini tələb edən qətnamə qəbul etdiyi" iddianız da həm də qərarın mətni kimi (yalnız Vilayət Şurasının bəzi deputatları tərəfindən qəbul edilmişdir, onun azərbaycanlı üzvləri Şuranı tərk etmişdilər) qismən doğrudur. Qətnamə mətninin rusca orijinalını mənim aşağıdakı tərcüməmdə nəzərdən keçirək:

"Dağlıq Qarabağ Muxtar Vilayətinin əmək qabiliyyətli əhalisinin istəklərinə uyğun olaraq Azərbaycan SSR Ali Sovetindən və Ermənistan SSR Ali Sovetindən xahiş edirik ki, Dağlıq Qarabağın erməni əhalisinin gözləntilərini nəzərə alaraq, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi məsələsinin həll etsin. Eyni zamanda, bu iki qurum Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi məsələsinin müsbət həlli ilə bağlı SSRİ Ali Soveti ilə vasitəçilik etsin."

Sizin mütəxəssis rəyinizi oxuduqdan sonra məndə belə bir təəssürat yarandı ki, bu sənəd həm tarixi fonun, həm də real vəziyyətin birtərəfli ermənipərəst şərhinə əsaslanır. Azərbaycanın "soyqırımı" törətməkdə ittiham olunduğu fikrini dəstəkləyərək Rusiya Federasiyasının verdiyi bəyanatdan sitat gətirsəniz və həmin sənədin qəbul edilməsini "diqqətçəkən" hesab edirsiniz (səh.8). Bu bəyanatda deyilir ki, bölgədəki Rusiya sülhməramlıları "Dağlıq Qarabağın mülki əhalisinin kütləvi şəkildə həlak olmasının qarşısını almalıdırlar". Hörmətimizi bildirərək bunu da qeyd etməliyik ki, bu bəyanatı verən hökumət 1945-ci ildən bəri Avropanın ən dəhşətli müharibəsinə imza atmış, saysız-hesabsız qətllər və dəhşətli müharibə cinayətləri törətmiş, yalanlarla məşhur olan qurumlardan biridir. Ən önəmlisi isə ən azı 118 ildir ki, Ermənistan-Azərbaycan münaqişəsinə görə məsuliyyət daşıyan və Dağlıq Qarabağda ermənilər tərəfindən törədilən hərbi cinayətlərdə və insanlıq əleyhinə cinayətlərdə həm də hərbi yolla iştirak etmiş ən önəmli güc strukturlarından biridir. Bu bəyanatı necə legitim hesab etmək olar? Belə bir bəyanat terrorizmi qanuniləşdirərək, tənqidi kontekstdən kənardır. Yaxud tarixi və ya siyasi faktlarla nisbiləşdirmədən sitat gətirmək yalnız Rusiya və Ermənistan təbliğatının maraqlarına xidmət edir və reallığın faktiki imicini yaratmağa heç bir fayda vermir.

Sonda isə onu qeyd etmək istəyirəm ki, Qarabağda "aclıq soyqırımı"nın baş verməsi ilə bağlı arqumentlərinizi həqiqətə uyğun hesab etmirəm. Məqalənizin 13-cü səhifəsində siz Soyqırımı Konvensiyasının II (c) maddəsinin tərtibi ilə əlaqədar Fransa tərəfindən edilmiş soyqırımla bağlı qeydə istinad edirsiniz. Fransanın mətnində deyilir ki, "[i]hər hansı bir qrup [sic - M. R. H.] sadəcə, müəyyən bir millətə, irqə və ya dinə mənsub olduğu üçün yox olmasını qaçılmaz edəcək qədər qısa rasiona yerləşdirilsəydi, bu da gerçəkləşərdi. Soyqırımı cinayət kateqoriyasına daxildir".

Siz həqiqətən 120 min nəfərlik bir icmanın (bu, Ermənistanın iddia etdiyi rəqəmdir) Qarabağın geniş dağlıq rayonları kimi münbit bir bölgədə, təsərrüfatın və heyvandarlığın mümkün olduğu, sovet dövründə yüksək inkişaf etdiyi (Sovet İttifaqı zamanı təsərrüfatın əhəmiyyəti mövzusunda "Xlevnik 2018" sənədinə istinad edirəm) və təbii su ehtiyatlarının kifayət qədər olduğu ərazidə yayın ortasında aclıqdan ölə biləcəyinə inanırsınız?! Məqalənizdən də məlum olduğu kimi, separatçı ərazilərdən ağır xəstələrin təxliyəsi üçün tədbirlər görülüb. Bu, həm də təhlükəli qida çatışmazlığından əziyyət çəkən insanların çıxarıla biləcəyi deməkdir. Məqalənizdə aclığın (sizin mətninizin 15-ci səhifəsində göstərildiyi kimi) həqiqətən baş verdiyinə və ya bir qrup olaraq Dağlıq Qarabağ ermənilərini təhdid edə biləcəyinə dair hər hansı müsbət sübut və ya işarə yoxdur.

Hüquqşünas olmadığım üçün Beynəlxalq Ədalət Məhkəməsinin ilkin qərarı (səh. 15) ilə yerdəki reallıq arasında uyğunluq dərəcəsini ölçə bilmirəm. Bununla belə, hüquqşünas olmayan biri kimi belə görürəm ki, hətta Beynəlxalq Ədalət Məhkəməsi Qarabağın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində "soyqırımı"ndan fakt kimi deyil, sadəcə, "inandırıcı" yanaşmasından danışır (səh. 15). İddia olunan blokadaya gəldikdə isə Beynəlxalq Ədalət Məhkəməsi bildirir ki, bu, - 16-cı səhifədə qeyd olunduğu kimi, - çox əhəmiyyətli müəyyən hüquqlar üçün "düzəldilməz nəticələrə səbəb ola bilər" (vurğulayıram). Bu isə onu bildirə bilərdi ki, həmin nəticələr yalnız bir ehtimaldır, müəyyən edilmiş fakt deyil.

Mətninizin əsas diqqət mərkəzində olan sırf hüquqi baxımdan kənar - Laçın dəhlizində Azərbaycan sərhəd-keçid məntəqəsinin yaradılmasının soyqırımına hazırlıq vasitəsi kimi şərh oluna biləcəyi ilə bağlı iddianıza inanmıram. Bir çox ölkələrin, o cümlədən ABŞ və Avropa İttifaqının xarici sərhədləri olan ölkələrinin insan və malların qaçaqmalçılığının qarşısını almaq məqsədilə oxşar sərhəd-keçid məntəqələri var, lakin onlar soyqırımı hazırlamaqda ittiham olunmur.

Prezident İlham Əliyevin qeyd etdiyi qaçaqmalçılıq hadisəsi ilə bağlı təhlilinizdə başqa bir ziddiyyətli məqam görürəm (səh. 20). Siz bir tərəfdən yazırsınız ki: "Beynəlxalq Qırmızı Xaç Komitəsi hadisəyə aydınlıq gətirib". Digər tərəfdən, eyni səhifədə yazırsınız ki: "Qaçaqmalçılıq halları düzgün araşdırılmalıdır...". Bir hadisəyə aydınlıq gətirilib, amma, eyni zamanda, "araşdırılmalıdır" deməyiniz tutarlı görünmür, ən azı mənim gözümdə. Əgər araşdırmalar hələ də aparılmalıdırsa, bu o deməkdir ki, hər şey aydınlaşdırılmayıb.

Bir daha qeyd edirəm ki, mən nə hüquqşünas, nə də soyqırımı üzrə mütəxəssis deyiləm. Bir şəxsi və ya bir dövləti soyqırımı törətməkdə ittiham etmək mənə mümkün olan ən sərt ittihamlardan biri kimi görünür. Nəticə etibarilə belə bir ittiham yalnız onun etibarlılığına dair bütün şübhələr tamamilə aradan qaldırıldıqda verilməlidir. Açığını deyim ki, mətninizə daxil etməyi seçdiyiniz tarixi məqalədəki qüsurlar və qeyri-dəqiqliklər, eləcə də burada aydın görünən ziddiyyətlər, mənim fikrimcə, hökmün tələb olunduğu qədər etibarlı və aydın ola bilməyəcəyini göstərir.

Hörmətlə,

Dr. Mixael Raynhard Hess".

# Azərbaycan-Ukrayna münasibətləri tarixi köklərə malikdir

**1991-ci il dekabrın 25-də Mixail Qorbaçovun SSRİ-nin Prezidenti postundan istefa verməsilə dekabrın 26-da SSRİ Ali Soveti 15 sovet respublikasının müstəqilliyini tanıdı. Beləliklə imperiya süquta uğradı. Ümumilikdə dünyanın quru hissəsinin 1/6-nı tutan SSRİ-nin parçalanması ilə yaranan respublikalar ard-arda öz müstəqilliklərini elan etdilər. Uzaq Şərqdən Avropaya qədər geniş əraziləri əhatə edən Sovet imperiyasının süqutu ilə meydana gələn dövlətlərdən biri də Ukrayna oldu. Hər il avqustun 24-də Ukraynada Dövlət Müstəqilliyi Günü kimi qeyd olunur. Bu il Şərqi Avropanın ən böyük slavyan ölkəsi SSRİ-dən ayrılmalarının 32-ci ildönümüdür.**

Ukraynanın Müstəqillik Günü ilə bağlı bir sıra maraqlı faktlar da mövcuddur. 16 iyul 1991-ci ildə ilk dəfə Ukraynanın müstəqillik günü qeyd olunsa da, daha sonra tarix 24 avqusta köçürüldü. 1991-ci ildə müstəqillik üçün keçirilən ümumrusiya referendumunda xalq Ukrayna dövlətinin müstəqilliyini elan etmək qərarına gəldi. Vərəqdə yalnız bir sual var idi: "Ukraynanın müstəqilliyini elan etmək aktını təsdiqləyirsinizmi?". Bütün bölgələrdən olan ukraynalıların 90 faizindən çoxu razılıqla cavab verir. 23 avqust 1991-ci ildə Ukraynanın müstəqilliyini elan etmək Aktının layihəsi yazılır. Akt Ukraynanın ictimai-siyasi xadimləri olan Leonty Sandulyak və Levko Lukyanenko tərəfindən adi bir məktəb dəftərində yazılmışdır. 24 avqust 1991-ci ildə Ukrayna SSRİ Ali Sovetinin fövqəladə iclasında 346 deputat Ukraynanın müstəqilliyinə səs verir. Ukrayna milli demokratik hərəkatının liderlərindən Vyaçeslav Çernovil, mavi və sarı rənglərdən ibarət bir bayraq gətirməyi təklif edir və sonra bayraq parlamentin günbəzinin üstünə qaldırılır. Ukraynanın müstəqilliyini tanıyan ilk dövlət qərb qonşusu Polşa olur. Dövlət bayrağı 28 yanvar 1992-ci ildə rəsmi olaraq müstəqilliyin dövlət simvolu olaraq təsdiq edilib. Müstəqillik gününə həsr olunmuş ilk hərbi parad isə 24 avqust 1994-cü ildə keçirilib. 1996-cı il sentyabrın 2-də milli valyuta dövriyyəyə buraxılıb.

Ukrayna coğrafi mövqeyinə görə Şərqi Avropada yerləşir və dövlət idarəetmə formasına görə, parlament-prezident respublikasıdır. Ukrayna Qara və Azov dənizlərinin sahilində yerləşir. O, şimal-şərqdə Rusiya, şimalda Belarus, qərbdə Polşa, Slovakiya və Macarıstan, cənub-qərbdə Rumıniya, Moldovaya və tanınmamış Dnestryanı ilə həmsərhəddir. Ərazisində Krım Muxtar Respublikası, 24 vilayət və 2 xüsusi statuslu şəhər yerləşir. Ölkənin adı qədim slavyan dilində "sərhəd ölkəsi" mənasını verir. I Dünya müharibəsindən sonra 1919-cu ildə Ukraynada Sovet Sosialist Respublikası qurulub. 8 dekabr 1991-ci ildə Belarus, Rusiya və Ukrayna SSRİ-nin müstəqil dövlətlərə parçalanması barədə qərar verdilər və bununla da Ukrayna müstəqil dövlət oldu.

Ukrayna bir sıra sahələrdə dünyada və Avropada öncül ölkələrdəndir. Belə ki, Ukrayna torpaqlarının ərazisində Şərqi Avropada ilk ali təhsil müəssisəsi-1576-cı ildə Ostrogski şahzadəsi Konstantin-Vasili tərəfindən qurulan Ostrogskaya Akademiyası fəaliyyət göstərirdi. Avropanın ən qədim konstitusiyalarından biri 1710-cu ildə elan edilmiş Pilip Orlikin Ukrayna Konstitusiyasıdır. Konstitusiyanın ilk səhifəsinin əsli indi İsveç Milli arxivində saxlanılır. 1934-cü ildə Parisdəki Dillər gözəllik yarışmasında Ukrayna dili dünyanın ən yaxşı, ən melodik və zəngin dili seçilib və İtaliyadan sonra ikinci yeri tutub. Ukraynalılar 200 minə yaxın xalq mahnısı yaradan dünyanın ən melodik millətidir. Dünyanın heç bir millətində bu qədər mahnı yoxdur. UNESCO-da Ukrayna folklorunun və dünya xalqlarının mahnılarının kolleksiyası mövcuddur. Ukrayna Fondunda 15 mindən çox xalq mahnısı var, ikinci yeri 6 min xalq mahnısı olan İtaliya tutur.

Ukrayna Azərbaycan üçün strateji müttəfiq, dost və tərəfdaş ölkələrdən biridir. BMT, AŞ, QDİƏT, GUAM, MDB və digər beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanla Ukrayna məsləhətləşmələr aparır və ənənəvi olaraq bir-birinə qarşılıqlı dəstək verir. Azərbaycan Respublikası ilə Ukrayna arasında diplomatik əlaqələr 31 yanvar 1992- ci ildə yaradılmışdır. 1996-cı ildə Ukraynanın Azərbaycanda, 1997-ci ildə isə Azərbaycanın Ukraynada səfirliyi açılmışdır. Dövlətlərimizin münasibətlərinin əsasını 16 mart 2000-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə və 22 may 2008-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə təşkil edir. Azərbaycanla Ukrayna arasında siyasi, iqtisadi, elm, təhsil, mədəni və digər sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir və iki dövlət strateji tərəfdaşdır. Parlamentlərarası əlaqələr və qanunvericilik sahəsində də əməkdaşlıq inkişaf edir. İlk dəfə 1995-ci il 27-28 iyulda Prezident Leonid Kuçma Azərbaycana və 1997-ci il 24-25 martda Prezident Heydər Əliyev Ukraynaya rəsmi səfər edib. Hazırkı dövlət başçıları prezidentlər İlham Əliyev və Volodimir Zelenskinin dövründə də iki ölkə arasındakı münasibətlər yüksək səviyyədədir. 2019-cu il dekabrın 17-də Prezident Volodimir Zelenskinin ölkəmizə rəsmi səfəri və 2022-ci il yanvarın 14-də Prezident İlham Əliyevin Ukraynaya işgüzar səfəri baş tutub. Sonuncu dəfə isə liderlər 2023-cü il iyunun 1-də Kişineu şəhərində görüşüblər.

Artıq bir ildən çoxdur davam edən və bütün bəşəriyyəti narahat edən Ukrayna-Rusiya müharibəsi fonunda yaranmış son vəziyyətlə əlaqədar Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına da bir neçə dəfə humanitar yardım göndərilmişdir. Bu yaxınlarda Prezident İlham Əliyev Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında Sərəncam imzalayıb. Sərəncamla Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə elektrik avadanlıqlarının satın alınması və göndərilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 7,6 milyon (yeddi milyon altı yüz min) ABŞ dollarının manat ekvivalentində vəsait ayrılıb.

**Musa BAĞIRLI,**
**"Respublika".**

**Azərbaycanın davamlı inkişafı işğaldan azad edilən Qarabağda və Şərqi Zəngəzurda daha aydın görünür, dövlətimizin gücünün, xoş niyyətinin, iradəsinin təntənəsi bu iqtisadi rayonlarda aparılan genişmiqyaslı işlərdə əks olunur. İkinci Qarabağ müharibəsini qələbə ilə başa çatdıran və 30 il işğal altında qalan torpaqlarımızı azad edərək ərazi bütövlüyünü bərpa edən Azərbaycan Ermənistan tərəfindən dağıdılmış və talan edilmiş 8 şəhərin və 300-ə yaxın kəndin yenidən salınması üçün heç bir dövlətə, heç kəsə müraciət etmədən, kömək gözləmədən Lüksemburq böyüklüyündəki ərazidə tikinti-quruculuq işləri aparır, özü də keyfiyyətlə, inamla...**

# Erməni etirafı: "adam dəli olur..."

Azərbaycan həm də XXI əsrin müharibəsini apardı, yüksək döyüş peşəkarlığı sayəsində müasir hərbi silahları tətbiq etməklə işğalçıların başını əzdi, bel sütununu sındırdı, qəsbkarları mənəvi-psixoloji cəhətdən sarsıtdı. Qalib, rəşadətli Azərbaycan ordusu tərəfindən otuz ilə yaxın Ermənistanın işğalı altında qalan torpaqlarımız cəmi 44 günə qəsbkarlardan azad edildi. Qarabağda və Şərqi Zəngəzurda erməni faşizmi tərəfindən törədilən vəhşilik, qəddarlıq dəhşət saçır, şəhərlərin və kəndlərin dağıdılaraq xarabalığa çevrilməsi, təbiətə qarşı vəhşi münasibət faşist erməni mahiyyətinin ən iyrənc təzahüründən xəbər verir. İki yüz ildir ki, Azərbaycan torpaqlarına qarşı iddia irəli sürən ermənilərdən soruşmaq lazımdır ki, əgər bu torpaqlar onlara aid olubsa, onda 30 il ərzində oraları niyə tikib qurmayıblar?! Ancaq boş-boş danışıb, lovğalanıblar. Əslində, ermənilər Qarabağın və Şərqi Zəngəzurun onlara aid olmadığını yaxşı bilirdilər. Fəqət xunta rejiminin başçıları, əlləri dirsəklərinə qədər xalqımızın qanına batmış, uşaq qatilləri Robert Köçəryan və Serj Sərkisyan havadarlarının köməyinə arxalanaraq iki xalq arasında qatı düşmənçilik yaratdılar. Bu düşmənçiliyin yaraları çox dərinə işləyib, Qarabağda və Şərqi Zəngəzurda aşkar edilən kütləvi məzarlıqlar erməni vəhşiliyindən xəbər verir, insanların dərdini, qan axan yaralarını sağaltmaq mümkün deyil, yüz minlərlə ailə bu cəlladların cinayətlərindən əziyyət çəkib, övladlarını itiriblər. Bu faciələri yaşadan işğalçı Ermənistan 2020-ci ilin noyabr ayında ağır məğlubiyyətə uğradı, silahlı qüvvələri tar-mar edildi, döyüş texnikaları sıradan çıxarıldı, bir çoxu qənimət kimi ələ keçirildi, minlərlə əsgər və zabiti döyüş meydanında məhv edildi, şəhidlərimizin qisası düşməndən alındı, torpaqlarımız öz azadlığına qovuşdu. Müharibədən cəmi 8 gün sonra Qarabağda və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işlərinə başlanıldı və bu nəhəng layihələrin icra edilməsi dörd mərhələ üzrə aparılır: şəhərlərin Baş planının hazırlanması, ərazilərin minalardan təmizlənməsi, infrastrukturun qurulması və Böyük Qayıdış. Dünyada müharibə ilə üzləşən ölkələr arasında Azərbaycan analoqu olmayan bir sıçrayışla, dirçəlişlə, qətiyyətlə, sürətli quruculuqla iki il yarım müddətində Qarabağa və Şərqi Zəngəzura keçmiş məcburi köçkünlərin qayıdışını təmin edir. Böyük və ləyaqətli qayıdış Talış, Ağalı kəndlərini, Laçın və Füzuli şəhərlərini əhatə edir. Onlarla kəndin təməl daşı qoyulub, bir çoxunda tikinti işləri aparılır, infrastruktur yaradılır.

İşğaldan azad olunmuş Qubadlı rayonunda daha bir yaşayış məntəqəsində bərpa və yenidənqurma işlərinə başlanılır. Söhbət bu ilin mayında təməli qoyulan və birinci mərhələdə 159 evin tikiləcəyi Zilanlı kəndindən gedir. Kəndin salınması üçün torpaq işləri görülür. Xatırladaq ki, hazırda Qubadlı rayonunun Mahruzlu kəndində də bərpa və yenidənqurma işləri davam edir. Həmin yaşayış məntəqəsində ümumi ərazinin planlaşdırılması üzrə nəzərdə tutulan işlər yerinə yetirilir. Qubadlının hər iki kəndində bərpa və yenidənqurma işlərinə cəlb edilmiş şirkətlər açıq tender yolu ilə müəyyən edilib. Bundan başqa, işğaldan azad edilmiş ərazilərdə yeni tədris ilində dörd məktəb açılacaq. Belə ki, yeni tədris ilində Füzuli şəhər 1 nömrəli tam orta məktəbdə 349 şagird təhsil alacaq. Şuşa şəhərindəki 1 nömrəli tam orta məktəbdə isə 314 məktəbli oxuyacaq. Bununla yanaşı, Laçında da iki məktəbin açılması nəzərdə tutulub - Laçın şəhər 2 nömrəli tam orta məktəb və Ədalət Məmmədov adına Zabux kənd tam orta məktəbi. 2 nömrəli məktəbdə 227, Zabux kənd məktəbində isə 147 şagird təhsil alacaq.

Qarabağda və Şərqi Zəngəzurda aparılan modern və çağdaş şəhərsalma işlərini, yeni və müasir kəndlərin salınmasını, həyatın bütün sahələrini əhatə edən infrastruktur layihələrin icra edilməsini, qısa müddət ərzində yüzlərlə keçmiş məcburi köçkün ailəsinin doğma yurd yerlərinə qayıdışını diqqətlə izləyən ermənilərin nə hala düşdüyünü təsəvvür etmək heç də çətin deyil. Bu, erməni jurnalist Bella Lalayanın "Facebook" səhifəsində yazdıqlarından da aydın görünür. Erməni jurnalist qeyd edir: "Azərbaycanın gördüyü nəhəng işləri görəndə adam dəli olur. Aydın məsələdir ki, Əliyev Füzulini, Laçını, Ağdamı, Qubadlını yenidən qurur ki, bizi incitsin. Amma tikir axı. Siz də inşa edərdiniz! Ay simic vətənpərvərlər, "liderlər"! Bu iki il ərzində gördükləri işlərin həcmini görəndə adam dəli olur. Sonra da deyirsiniz ki, Azərbaycan video və fotolarını yaymayın. Niyə? Çünki mənfur niyyətləriniz üzə çıxıb? İki ildə görülən işin iki faizini 30 ildə etməmisiniz? 30 ildir ki, normal informasiya strategiyası və mübarizəsi belə formalaşdıra bilməmisiz. Tikinti-quruculuq işlərindən söz düşmüşkən qeyd edək ki, bir az əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan inşaatçılar gününə həsr olunmuş tədbirdə bildirib ki, ölkəmizdə tikinti sənayesinin əsas problemlərindən biri tikinti mədəniyyətinin olmamasıdır. Söhbət ölkənin strateji inkişafından, yeni tikinti mədəniyyətindən, yeni keyfiyyətdən, yeni standartlardan, yeni yanaşmalardan və templərdən gedir. Bizdə binanın söküntüsü illərlə davam edir. Müdafiə Nazirliyinin keçmiş binasını 4 ildir sökürük. Bu həm özəl sektor, həm də dövlət sektoru üçün problemdir. Mən hələ yeni binanın tikintisi müddətindən danışmıram. Bir çox başqa ölkələrdə (Azərbaycan deyə bilməyib) bir neçə günə tikilən binanı Ermənistanda illərdir tikirlər, tikirlər, amma tikib qurtara bilmirlər". Baş nazir acı həqiqəti, Ermənistanın düşdüyü acınacaqlı vəziyyəti açıqlayıb. Erməni mətbuatı başqa bir





reallığı gündəmə gətirib. Qeyd olunur ki, 1994-cü ildə atəşkəs elan olunandan sonra Azərbaycan əhalisi 2 dəfə artıb, Ermənistan əhalisi isə xeyli azalıb. Qəzet yazır ki, 1994-cü ildə atəşkəs elan olunan zaman qeyd olundu ki, Ermənistan tərəfi müharibədə qalib gəlib, Azərbaycan tərəfi isə məğlub olub. Bəs niyə bu qələbə nəticəsində Ermənistanın əhalisi artmadı, əksinə azaldı və Azərbaycanı iqtisadiyyat sahəsində rəqabətdə məğlub etmək mümkün olmadı? Bax belə! Ermənistandakı iqtisadi tənəzzülü, qıtlığı, polis zorakılığını aydın hiss edən erməni ailələri ölkəni tərk edirlər. Erməni mətbuatının yazdığına görə, ötən il Ermənistanı 7 mindən çox insan tərk edib. Vaxtilə "böyük Ermənistan" qurmaq istəyən xəyalpərvərlər düşdükləri bataqlıqdan xilas olmaq üçün qaçırlar. Qarabağdan da qaçış başlayıb. İrəvandakı ermənilərin hamısı ABŞ və Fransadan kömək gözləyir. Erməni siyasi şərhçinin fikirləri dediyimizlə üst-üstə düşür. Qeyd olunur ki, hamımız bilirik ki, Azərbaycan güclü dövlətdir. Onun nefti və digər təbii sərvətləri mövcuddur. Bəs bizim nəyimiz var? Əlimizdə olanları da ruslara vermişik. Xəritədə Ermənistan kiçik bir dövlətdir, hansısa görünməyən nöqtədir. Mən heç vaxt bizim millətin bəzi nümayəndələri kimi axmaq insanlar görməmişəm.

Bir daha qeyd edək ki, Qarabağa və Şərqi Zəngəzura 30 ildən sonra həyat qayıdır, o torpaqların yeni dövranı başlayır... Ermənilərin vəhşiliklə törətdikləri dağıntılar aradan qaldırılır, xarabalıqlar üzərində yeni və müasir şəhərlər salınır. Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda yeni yolun inşası nəzərdə tutulmuşdu. Azərbaycan Laçın şəhərindən yan keçən və Qarabağın dağlıq hissəsini Ermənistanla birləşdirən yeni yolu nəzərdə tutulduğundan iki il tez istifadəyə verdi. Laçın dəhlizinə alternativ olan bu yol iki hərəkət zolaqlıdır. Azərbaycan tərəfinin çəkdiyi yeni yol Ermənistanla sərhəddən - Gorusun Kornidzor kəndindən başlayır, Laçından yan keçərək Şuşa rayonunun Kiçik Qaladərəsi və Böyük Qaladərəsi kəndlərinədək uzanır və Turşsu kəndində mövcud magistralla kəsişir. Yeni yol Laçın rayonunun 6 kəndindən keçir. Laçın yolunda quraşdırılan sərhəd-keçid məntəqəsi isə Azərbaycanın suveren hüququdur və artıq bu yoldan yüzlərlə erməni ailəsi sərbəst şəkildə istifadə edir. Yol açıqdır, ermənilər hər gün bu yoldan keçirlər. Belə isə onda gecə-gündüz "blokada"dan danışan Xankəndidəki separatçı rejim və onların əlaltıları həqiqətən axmaqdırlar.

Ağır məğlubiyyətlə barışa bilməyən ermənilər və onların havadarları Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı tikinti-quruculuq işlərinə də paxıllıq edir, Azərbaycanın uğurlarını ağrı ilə, sancı ilə qarşılayırlar. Azərbaycanda isə Qarabağda və Şərqi Zəngəzurda qazanılan tarixi qələbəmizin, şanlı Zəfərimizin üçüncü ildönümünə hazırlaşırlar. Xalqımızın coşqusu və yüksək əhvali-ruhiyyəsi ilə qeyd olunan həmin tarixi gün həm də Silahlı Qüvvələrimizin Qalib Ali Baş Komandanı İlham Əliyevin, dövlət başçısı kimi adını tarixin səhifələrinə həkk edən liderin günüdür.

**Salman ALIOĞLU,**
**"Respublika".**




# OXUCULARIN NƏZƏRİNƏ!

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

**RESPUBLİKA**

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL İQTİSADİ QƏZET

*qəzetinə 2023-cü ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

***Abunə yazılışı üçün respublikanın bütün poçt şöbələrinə və özəl mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz.***

| | |
|---|---|
| 1 illik | 124,80 (bir yüz iyirmi dörd manat səksən qəpik) manat |
| 6 aylıq | 62,40 (altmış iki manat qırx qəpik) manat |

**Hörmətli oxucular!**
**Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 510-82-52, (012) 493-59-08 və (012) 537-07-06 nömrəli telefonlara zəng vura bilərsiniz.**

**Abunə yazılmağa tələsin!**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23

Baş redaktor
Hümbət MUSAYEV

Redaksiya ilə əlaqə nömrələri

| | |
|---|---|
| Qəbul otağı | 493-59-08 |
| Katiblik | 538-43-41 |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası | 538-55-20 |
| Rəqəmsal inkişaf, iqtisadiyyat və islahatlar redaksiyası | 434-56-90 |
| Humanitar siyasət redaksiyası | 538-25-70 |
| Xəbərlər, ictimai rəy və sosial problemlər redaksiyası | 538-01-31 |
| Texniki şöbə | 538-61-02 |
| Ümumi şöbə | 510-82-52 |
| Reklam və elan xidməti | 441-20-23 |

Redaksiyanın ünvanı
AZ1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
www.respublika-news.az
respublikaqezeti@mail.ru, resp.paper@gmail.com
Qeydiyyat №7 İndeks 0240 Tiraj: 5145
*"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.*
Qəzetin saytına keçid üçün QR kodu telefonunuzla oxudun
Sifariş 2129, Satış qiyməti 40 qəpik

# "AzerGold" QSC-dən fişinq hücumları ilə bağlı növbəti xəbərdarlıq

**Son dövrlər "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) adından müxtəlif sosial media resursları vasitəsilə saxta reklam kampaniyalarının təşkili davam etdirilir.**

Fişinq xarakterli bu hücumlar zamanı "AzerGold" QSC sosial şəbəkə platformalarında müxtəlif "investisiya" layihələrinin təşkilatçısı kimi təqdim edilir və vətəndaşlar bu saxta layihədən faydalanmağa dəvət edilir.

Diqqətə çatdırırıq ki, dövlət şirkətinə olan etibardan, həmçinin Səhmdar Cəmiyyətin işgüzar nüfuzundan sui-istifadə edilməklə həyata keçirilən kibercinayət aktları vətəndaşların maliyyə xarakterli fərdi məlumatlarını əldə etmək, maliyyə vəsaitlərini mənimsəmək niyyəti ilə həyata keçirilir və "AzerGold" QSC onların verdikləri vədlərə heç bir məsuliyyət daşımır.

"AzerGold" QSC-nin fəaliyyəti, həmçinin investisiya layihələri ilə bağlı məlumatlar şirkətin rəsmi informasiya resurslarından, o cümlədən etibarlı mənbələrdən almağı, dələduzluq məqsədi daşıyan bu cür hallarla qarşılaşdıqda təqdim edilən keçidlərə daxil olmamağa, dərhal müvafiq hüquq-mühafizə orqanlarına müraciət etməyə çağırırıq. ■

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ










İDMAN * DAİM ZİRVƏLƏRDƏ

## Atıcımız qızıl medal qazanıb



Bakıda keçirilən atıcılıq üzrə 53-cü dünya çempionatı davam edir. 25 metr məsafəyə tapançadan mərkəzə atəş açma növündə kişi və qadınların yarışı keçirilib. Ölkəmizi təmsil edən Nigar Nəsirova qızıl medala yiyələnib. Nərminə Səmədova isə gümüş medala layiq görülüb. Üçüncü yerə Monqolustandan olan atlet Xişiqderger Enxbat sahib olub. Kişilər arasında komanda növündə Almaniya birinci, Koreya ikinci, Hindistan üçüncüdür.

## İki boksçumuz finala yüksəlib, ikisi bürünc medala sahib olub



Sloveniyanın Maribor şəhərində məktəbli boksçular arasında Avropa birinciliyində yarımfinal döyüşləri keçirilib. Millimizin üzvü Şahin Aslanov (52 kiloqram) gürcüstanlı Sandro Kapanadzeni məğlub edib. Boksçumuz həlledici görüşdə Nikolay Nikolayevlə (Bolqarıstan) üz-üzə gələcək. Səftər Məmmədzadə (90 kiloqram) isə yarımfinal döyüşünün taleyini ilk raundda həll edib. Təmsilçimiz ermənistanlı Aram Tumanyanı nokaut edərək tam üstünlüklə qələbə qazanıb. Məmmədzadə çempionluq üçün Yosip-Vladislav Kozakeviçlə qarşılaşacaq. Digər boksçularımızdan Adil Zalov (63 kiloqram) və İsmayıl Vəliyev (70 kiloqram) Avropa birinciliyini bürünc medalla bitirib.

## Atletimiz Olimpiya Oyunlarına lisenziya əldə edib



Macarıstanın paytaxtı Budapeştdə təşkil olunan atletika üzrə dünya çempionatı davam edir. Milli komandamızın üzvü Anna Skidan çəkicatma üzrə təsnifat mərhələsində 77.10 metr nəticə ilə final mərhələsinə yüksəlib. Azərbaycan rekordunu və özünün şəxsi nəticəsini yeniləyən atletimiz Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

## Şahmat üzrə Dünya Kuboku yekunlaşıb



Bakıda keçirilən şahmat üzrə Dünya Kubokunun qalibi müəyyənləşib. Bu titula beşqat dünya çempionu, norveçli Maqnus Karlsen sahib çıxıb. O, finalda hindistanlı Rameşbaba Praqnanandxanı məğlub edərək, karyerasında ilk dəfə dünya kubokunu qazanıb. Üçüncü yer uğrunda görüşdə ABŞ təmsilçisi Fabiano Karuanaya uduzan Azərbaycan şahmatçısı Nicat Abasov isə dördüncü yerlə kifayətlənib.

**Nərgiz İSMAYILOVA,**
**"Respublika".**

### «Gəncə Avtomobil Zavodu» İB-nin 2022-ci ilin konsolidə olunmuş maliyyə hesabatları *

***Maliyyə vəziyyəti haqqında hesabat***
*31 dekabr 2022-ci il tarixə*

**Ölçü vahidi: manat**

| Bölmə/ maddə | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | **AKTİVLƏR** | | | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | **4** | 17382706 | | | |
| 12 | İnvestisiya mülkiyyəti | | | | | |
| 13 | Bioloji aktivlər | | | | | |
| 14 | Təbii sərvətlər | | | | | |
| 15 | İştirak pay metodu ilə uçota alın. invest | | | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | | | |
| 17 | Uzunmüddətli debitor borclar | | | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | | | |
| | **Cəmi uzunmüddətli aktivlər** | | | **17382706** | | |
| **2** | **Qısamüddətli aktivlər** | | | | | |
| 20 | Ehtiyatlar | 7 | 32092180 | | | |
| 21 | Qısamüddətli debitor borcları | **8** | 11389258 | | | |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | **9** | 9650674 | | | |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | **10** | 2 | | | |
| 24 | Sair qısamüddətli aktivlər | **11** | 18226857 | | | |
| | **Cəmi qısamüddətli aktivlər** | | | **71358971** | | |
| | **CƏMİ AKTİVLƏR** | | | **88741677** | | |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | | |
| 3 | **Kapital** | | | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | **12** | 3572592 | | | |
| 21 | Emissiya gəliri | | | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | | | |
| 33 | Kapital ehtiyatları | **13** | 13105915 | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilm. zərər) | **13** | 6132634 | | | |
| | **Cəmi kapital** | | | **22811141** | | |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | | | | |
| | | | | | | |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | **15** | 5506480 | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 52 | Vergi və s. məcburi ödənişlər üzrə öhdəliklər | **16** | 1139055 | | | |
| 53 | Qısamüddətli kreditor borcları | **17** | 20011611 | | | |
| 54 | Sair qısamüddətli öhdəliklər | **18** | 39273390 | | | |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | | **65930536** | | |
| | **Cəmi öhdəliklər** | | | **65930536** | | |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | **88741677** | | |

***İstehsalat Birliyində konsolidə olunmuş maliyyə hesabatları ilk dəfə tərtib edilib**

***Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat***
*(xərclərin xarakteri üzrə)*
*31 dekabr 2022-ci il tarixə*

**Ölçü vahidi: manat**

| Bölümün/ maddənin №-si | Göstəricilərin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 60 | Əsas əməliyyat gəliri | 19 | 156081207 | |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | 21 | (138595204) | |
| | **Ümumi mənfəət (zərər)** | | **17486003** | |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | | | |
| 71 | Kommersiya xərcləri | 21 | (3181245) | |
| 72 | İnzibati xərclər | 21 | (3624830) | |
| 73 və 61 | Sair əməliyyat xərcləri | 22 | (3014135) | |
| O cümlədən | Xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər | | | |
| | Xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər istisna olmaqla sair əməliyyat xərcləri | | | |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | | |
| | **Əməliyyat mənfəəti (zərəri)** | | **7665793** | |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərəri) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | **Vergi qoymadan əvvəl mənfəət (zərər)** | | **7665793** | |
| 90 | Mənfəət vergisi | | (1533159) | |
| 341 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **6132634** | |

### Kapitalda dəyişiklik haqqında hesabat
**31 dekabr 2022-ci il tarixə**

**Ölçü vahidi: manat**

| | Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları: Yenidən qiymətləndirmə üzrə ehtiyat | Kapital ehtiyatları: Məzənnə fərqləri üzrə ehtiyat | Kapital ehtiyatları: Qanunvericilik üzrə ehtiyat | Kapital ehtiyatları: Nizamnamə üzrə ehtiyat | Kapital ehtiyatları: Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | | **3572592** | | | | | | | **26517391** | **1535501** | **31625484** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 12 | | | | | | | | | 6132634 | **6132634** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyat | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | 1535501 | (1535501) | |
| Sair məcmu gəlir və ya zərər | | | | | | | | | | **(14946977)** | **(14946977)** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | **1535501** | **(10349844)** | **(8815255)** |
| **Hesabat dövrünün sonuna qalıq** | | **3572592** | | | | | | | **28052892** | **(8814343)** | **22811141** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
**(dolayı metod)**
**31 dekabr 2022-ci il tarixə**

**Ölçü vahidi: manat**

| | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət və zərər | 12 | (8814343) | |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| azlıq təşkil edən mülkiyyətçilərin payı | | | |
| mənfəət vergisi üzrə xərclər | | 1533159 | |
| amortizasiya xərcləri | | 3320160 | |
| investisiya fəaliyyəti ilə əlaqədar zərər (mənf.) | | | |
| Sair qeyri-pul əməliyyatları üzrə xərclər (gəlirlər) | | | |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | | **(3961024)** | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| Ehtiyatların azalması (artması) | | (5427241) | |
| əməliyyat debitor borclarının azalması (artması) | | (148077) | |
| Sair qısamüddətli aktivlərin azalması (artması) | | 17098359 | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalm.) | | (2369007) | |
| əməliyyat kreditor borclarının artması (azalması) | | (889758) | |
| Sair qısamüddətli öhdəliklərin artması (azalması) | | 4292543 | |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | (1533159) | |
| Ödənilmiş faizlər | | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **7062636** | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | 4 | (2752314) | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(2752314)** | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| səhmlərin və digər kapital alətlərinin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | 10000 | |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | (918620) | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(908620)** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **3401702** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti** | | | |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **6248970** | |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | **3401702** | |
| xarici valyutaların məzənnələrin dəyişməsinin təsiri | | | |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalığı** | | **9650672** | |

### "Gəncə Avtomobil Zavodu" İB -nin 2022-ci ilin konsolidə olunmuş maliyyə hesabatlarının auditinə dair
### MÜSTƏQİL AUDİTORUN HESABATI

**Tarix: 28.07.2023** **№ gx4BEBr2Of**

***Müsbət Rəy***

Mən, "Gəncə Avtomobil Zavodu" İB-nin (VÖEN 2300195431) və onun 100% mülkiyyətçisi olduğu "Marketinq və Servis Müəssisəsi" MMC-nin (VÖEN 1100607231 ) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə mühasibat uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə olunmuş maliyyə hesabatlarına əlavə edilən izahedici qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş konsolidə olunmuş maliyyə hesabatları İstehsalat Birliyinin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə konsolidə olunmuş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

***Rəy üçün əsaslar***

Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Konsolidə olunmuş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq İstehsalat Birliyindən və onun mülkiyyətçisi olduğu müəssisədən asılı deyiləm və digər etik öhdəlikləri bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri mənim peşəkar mühakiməmə görə cari dövrün konsolidə olunmuş maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər konsolidə olunmuş maliyyə hesabatlarının auditi baxımından və bu konsolidə olunmuş maliyyə hesabatlarına dair rəyimin formalaşmasında bütövlükdə nəzərə alınmışdır və mən bu məsələlərə dair ayrılıqda rəy vermirəm.

***Konsolidə olunmuş maliyyə hesabatlarına görə rəhbərliyin və İstehsalat Birliyinin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik konsolidə olunmuş maliyyə hesabatlarını, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı konsolidə olunmuş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidə olunmuş maliyyə hesabatlarını hazırladıqda rəhbərlik İstehsalat Birliyinin və onun mülkiyyətçisi olduğu müəssisənin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər İstehsalat Birliyinin və onun mülkiyyətçisi olduğu müəssisənin konsolidə olunmuş maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Mənim məqsədim təqdim edilmiş konsolidə olunmuş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə edim və rəyimin də daxil olduğu auditor hesabatını tərtib edim. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhriflər mövcud olduqda BAS-lara uyğun olaraq aparılan audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər. Mən auditi elə şəkildə planlaşdırmalı və aparmalıyam ki, konsolidə olunmuş maliyyə hesabatlarına təsir edən əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olum. İstifadəçilərə tərəfimdən təsdiq edilərək təqdim ediləcək konsolidə olunmuş maliyyə hesabatları əsasında qəbul edəcəkləri iqtisadi qərarlara təsir edəcək təhriflər əhəmiyyətli hesab edilir.

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü,**
**Sərbəst auditor Qulu Mehbalı oğlu Soltanov**
**Gəncə, Azərbaycan Respublikası**